# YƏHUDİ ETNOQRAFİYASI FƏNNİNDƏN MÜHAZİRƏ MƏTNLƏRİ

**Fənn müəllimi: dos. Abdullayeva Gülnarə Maarif qızı**

## YƏHUDİ ETNOQRAFİYASI FƏNNİNİN NƏZƏRİ ƏSASLARI: VƏZİFƏ, OBYEKT VƏ PREDMETİ

Etnoqrafiya - yunan sözü olub, "etnos – xalq", "qrafis – təsvir etmək" deməkdir. Etnoqrafiya bu və ya digər xalqı öyrənən, xalqın məişətini, adət-ənənənlərini, tarixini, mədəniyyətini araşdıran və digər elmlərlə müqayisədə xalqa daha yaxın olan elmdir. Etnoqrafiya tarix elmininin tərkib hissəsidir. Əgər arxeologiya tarix elminin ixtiraçısı hesab olunursa, etnoqrafiya isə onun bərpaçısı funksiyasını daşıyır. Ona görə də hər bir tədqiqatçı tarixin tədqiqi zamanı arxeoloji və etnoqrafik mənbələrə üstünlük verməlidir

Qədim və zəngin tarixə malik olan yəhudi xalqının öyrənilməsində etnoqrafiya elminin rolu əvəzsizdir. Yəhudi etnoqrafiyası bir elm kimi XIX əsrin sonu XX əsrin əvvəllərində təşəkkül tapmışdır. Bunun siyasi və mədəni-tarxi səbəbləri var idi: Avropanı məngənə alan antisemit ideyalarının yayılmasından sonra yəhudilərin qədim tarixinə maraq artmağa başladı – bu xalq kimdir və nə zaman formalaşmışdır. Dünyanın müxtəlif dövlətlərində yaşayan yəhudilərin soy kökünün araşdırılması, onların mənşəcə hansı qövmə aid olması məsələsi, yəhudilərin zəngin adət-ənənələri (nigah, toy, ölüm və dəfn, gündəlik həyatda riayət olunan qanunlar və s.) və bu adət-ənənələrinin formaşalmasında dinin başlıca rolu, yəhudi mədəniyyətinin əsas formaları, bu formaların bir-birindən fərqli və ortaq cəhətləri, yəhudilərin etnik qruplarının öyrənilməsi kimi məsələlər bir sıra görkəmli etnoqrafların diqqətini çəkməyə başladı. Lakin uzun müddət bu məsələ naşirlərin diqqətini çəkməmiş və buna görə də toplanan materiallar yalnız XX əsrin ortalarında çap olunmağa başlamışdır.

Qeyd etmək lazımdır ki, yəhudi etnoqrafiyası elmində iki əsas aparıcı istiqamət mövcuddur:

- ✓ yazılı və arxeoloji mənbələr əsasında qədim yəhudiliyin (Bibliya dövrü) öyərnilməsi;
- ✓ etnososioloji metodlar vasitəsilə öyrənilən müasir dövr yəhudiliyi.

Müasir İsraildə etnoqrafiya elminin inkişafı dövlətin qurulması ilə yeni mərhələyə qədəm qoymuşdur. Müasir yəhudi etnoqrafiyası elmi etnik tarix, folklorşünaslıq və dinşünaslıq elmləri ilə sıx əlaqədədir. Yəhudi etnoqrafiyası elmi müasir dövrdə İsrail və onun yalnız yəhudi əhalisini tədqiqi etmir; eyni zamanda, İsraildə yaşayan etnik azlıqları - bədəvilər, ərəblər, druz, çerkezləri də öyrənir.

Yəhudi etnoqrafiyası elminin inkişafında 1947-ci ildə yaradılmış Ben Ttsvi adına institutun xüsusi rolu vardır. İsrailin şərq icmaları və xüsusilə də, Qüdsdə yaşayan yerli əhalinin öyrənilməsində institut geniş tədqiqat işləri aparır, hər il bir kitab və iki jurnal nəşr etdirir. 1956-cı ildən hər il nəşr olunan "Tsfunot" ("Gizli xəzinələr") kitab seriyasında sefard yəhudilərinin tarix və mədəniyyətinə aid çoxlu məqalalər dərc olunur. Kitabın daimi müəllifləri B.Şammay, E.Engel, Y.Yahalom, A.Kohen, M.Hoykster, Y.Tobi, İ.Ratshabi, İ.Bartal, M.Ben-Sasson və başqalarıdır.

Bundan başqa İsraildə etnoqrafiyanın inkişafında 1978-ci ildə yaradılmış Qüds etnologiya və antropologiya institutunun da böyük xidmətləri vardır. İnstitut başlıca olaraq Qüdsün ərəb və yəhudi əhalisi tədqiq edir.

Yəhudi etnoqrafiyası elminin başlıca vəzifəsi yəhudi xalqını öyrənmək, onun qədim tarixini tədqiq etmək və daha da zənginləşdirməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, yəhudi etnoqrafiyası elmi yəhudi xalqının məişəti ilə yanaşı, bir elm kimi onun mədəniyyətini də tədqiq edir. Buna görə də bəzən yəhudi mədəniyyəti və incəsənəti fənnini yəhudi etnoqrafiyası elminin tərkibində öyrənirlər. Çünki yəhudi etnoqrafiyasının əsas predmetlərindən biri də yəhudi mədəniyyətinin əsas formalarını – maddi və mənəvi mədəniyyəti öyrənməkdir.

Yəhudi etnoqrafiyası elminin predmetindən danışarkən onu qeyd etməliyik ki, bu elm həm də yəhudi xalqının məişət və mədəniyyətindəki xüsusiyyətlərin tarixi dəyişkənliyini və inkişafını, yəhudi xalqının etnogenezini, etnik coğrafiyasını,

yəhudi xalqının digər xalqlarla mədəni-tarixi əlaqələrini tədqiq etməklə məşğuldur. Yəhudi etnoqrafiyası elmi təkcə yəhudi xalqının məişət və mədəniyyətini araşdırmır, eyni zamanda yəhudi xalqı ilə müxtəlif xalqların məişət və mədəniyyətində olan müxtəlifliyi öyrənir və həm də onların oxşar cəhətlərini də nəzərdən qaçırmır.

Yəhudi etnoqrafiyası elminin əsas tədqiqat obyekti bilavasitə etnos kimi çıxış edən yəhudi xalqıdır, xalqın özüdür. Çünki "xalq" anlayışı etnoqrafiya elminin əsas və başlıca anlayışıdır və buna görə də çox zaman "xalq" anlayışı "etnos" la eyniləşdirilir. Qədim yunan termini olan "etnos" etimoloji cəhətdən "xalq", "qəbilə", "insan qrupu" anlayışlarına uyğun gəlir.

Yəhudi xalqının və iudaizmin öyrənilməsinə etnoloji yanaşma ilk dəfə olaraq yəhudi xalqını bəşər mədəniyyətin inkişaf tarixinə daxil etməyə çalışan təkamülçülər tərəfindən aparılmışdır. İngilis etnoqraf və antopoloqu E.Teylor "İbtidai mədəniyyət" (1871) kitabında Bibliya mətnlərindən sitatlar gətirərək yəhudi mədəniyyətindən yazırdı. Sonradan V.R.Smit ondan bəhrələnərək qədim yəhudi dini ilə Ərəb yarımadasındakı qədim köçərilərin islamaqədərki inanclarını müqayisə etmişdi.

Klassik ingilis sosial antropologiyasının nümayəndəsi, totezmin, maqiya və dini inancların bəşəriyyət tarixi boyunca transformasiyasının öyrənilməsində böyük xidmətləri olan ingilis antropoloqu, mədəniyyatşünas, folklor ustadı, din tarixçisi və etnoqrafı C.C.Freyzer də yəhudi etnoqrafiya elminə töhfələrini vermişdir. Bu sahədə onun ilk mühüm işi "Qızıl budaq" ("The Golden Bough") adlanır. Müxtəlif məzmunlu əsərlərdə folklor nümunələrini tədqiq etməyə başlayan C.C.Freyzerin diqqətini sonradan Bibliya çəkir. "Əhdi-Ətiqdə folklor nümunələri" ("Folklore in the Old Testament") (1923) adlı üçtomlu əsərində o, Əhdi-Ətiqdəki folklor nümunələri tədqiq edir və bu nümunələrin dünya xalqlarını ədəbiyyatlarındakı müxtəlif təzahür formalarını göstərirdi. İlk dəfə olaraq C.C.Freyzer "Əhdi- Ətiqdə folklor nümuələri" əsərində qədim xalqların inanc və adətlərində mövcud olan analoji etnoqrafik və folklor nümunələrini toplayaraq onlara aydınlıq gətirdi. İlk dövrlərdə "Qızıl budaq", "Yunanıstanın təsviri", "Totemizm və ekzoqamiya", "İnanc və ölməzlik", "Təbiətin oxunması", "Odun yaranması haqda əsatirlər",

“İbtidai dinlərdə ölüm qorxusu” adlı hissələrdən ibarət olan əsər sonradan vahid əsər şəklinə gətirilir.

Müxtəlif dövrlərdə baş verən hadisələr Bibliyada adları qeyd olunan xalqların məişətinə də güclü təsir göstərirdi. Zaman keçdikcə imperializmin kolonlaşdırma sistemi süquta uğrayırdı. Müstəmləkədən azad olan xalqlar öz dövlətlərini qururdu. Nəticədə bəzi coğrafi ərazilərin adları dəyişirdi. Freyzer bəhs edilən əsərdə müxtəlif coğrafi adların ən qədim etimologiyasını araşdırır, həmin ərazilərdə yaşayan xalqların dini inamlarını təsvir edirdi.

Yəhudi etnoqrafiyası elminin diqqət çəkən xüsusiyyətlərindən ən başlıcası bu elmin müxtəlif dövlətlərdə fərqli istiqamətlərdə inkişaf etməsindədir. Avropa dövlətlərində yəhudiliyə maraq son dövrlərdə formaşlasa da, SSRİ-də yəhudi mövzusu ənənəvi mövzulardan biri kimi daim diqqət çəkmişdir. Sovet dövründə yəhudi tematikası etnoqrafiya elminin başlıca mövzusu kimi çıxış etmirdi. SSRİ dövründə yəhudiləri öyrənən etnoqrafların böyük bir qismi yəhudiləri daha çox “SSRİ-nın milli azlıqlara münasibəti” mövzusunun kiçik tərkib hissəsi kimi araşdırırdılar. Bu alimlərin əksəriyyəti yəhudiləri tədqiq edərkən müqayisəli dinşünaslıq metodundan istifadə edirdilər. Məsələn, XX əsrin görkəmli rus etnoqrafları İ, Krivolyov, D.Aptekman sovet yəhudiliyinin dini təcrübəsini öyrənir, yəhudilərin yaınız dinlə əlaqəli tarixinə toxunurdular.

XX əsrin əvvəllərində L.Şteynberq, M.ŞViner kimi görkəmli etnoqraflar folklor nümunələri və yəhudi məişətinə aid olan əşyaları toplayaraq yəhudiləri etnoqrafik cəhətdən tədqiq etməyə başladırlar. 1908-ci ildə Sankt-Peterburqda açılan Yəhudi tarixi-etnoqrafik cəmiyyəti yəhudi etnoqrafiyası elminin inkişafına təkan verdi. Lazın sonradan senzura ilə üzləşən cəmiyyət fəaliyyətini dayandırmaq məcburiyyətində qalır və 1970-ci illərə SSRİ-də qədər demək olar ki, yəhudi mövzusuna maraq tamamilə itir. Bu illərdə yalnız Z.A.Şapiro dağ yəhudiləri və Buxadra yəhudilərinin mədəniyyətini öyrənir.. Eyni zamanda A.Sinelnikov və Elmi-Tədqiqat İnstitutunun birgə əməyi nəticəsində “Yəhudi ensiklopediyası” müxtəlif tomlarda nəşr olunur. 90-ci illərdə isə SSRİ-nin müxtəlif bölgələrində olan

universitetlərdə yəhudi bölmələri açılır ki, bununla da yəhudi mövzusu etnoqrafiyanın başlıca tədqiqat obyektinə çevrilir. Bu gün Rusiyanın müxtəlif bölgələrində M.Şlenov, R.Kaplanova, A.Militaryevin rəhbərliyi alıtında bir sıra gənc etnoqraflar qədim və müasir yəhudiliyi tədqiq edir.

## YƏHUDİLƏRİN ETNİK QRUPLARI

Dünyanın ən qədim xalqlarından biri olan yəhudilər (יהודים, עברים – yehudim, ivrim) qədim İsrail çarlığında yaşamış əhalidən yaranan xalqdır. Faktiki olaraq dünyanın bütün ölkələrində yaşayan yəhudilərın sayı 2014-cü il statistik məlumatlarına görə 13, 6 mlyn. nəfərdir. Onlardan 40%-i İsraildə, 35%-i isə ABŞ-da yaşayır.

Hallaxa ənənəsinə görə anası yəhudi olan və ya iudaizmi qəbul edən kəs (“qiyur”) yəhudi hesab olunur. Bu kriteriyalar 1950-ci ildə Knessetin qəbul etdiyi “Xok haşvut”a (“Qayıtma qanunu”) daxil edilmişdir. Bu qanun yəhudilərin İsrailə köçü (aliya) haqqındadır. Qanun nöqteyi-nəzərindən hətta tarixən yəhudilərlə qan bağımlığı olmayan kəs də iudaizmə tapındığı üçün yəhudi hesab oluna bilər.

Yəhudi icmaları (“kehilot”) təqribən 110 dövlətdə mövcuddur. Ən böyük yəhudi icmaları (60 min nəfərdən çox) aşağıdakı ölkələrdədir:

1) İsrail – 5, 478, 2 mln.nəfər
2) ABŞ – 5,275 mln.nəfər
3) Fransa – 488 min nəfər
4) Avstraliya – 107 min nəfər
5) Kanada – 315,1 min nəfər
6) Böyük Britaniya – 294 min nəfərdən çox
7) Almaniya – 120 min nəfər
8) Rusiya – 156, 8 min nəfər

9) Ukrayna – 103, 5 min nəfər

10) Avstraliya – 90 min nəfər

11) CAR – 71, 3 min nəfər

12) Braziliya – 96 min nəfər

Adları qeyd olunan dövlətlərdən başqa, yəhudilər az sayda olsa belə Macarıstan (48,8 min nəfər), Meksika (39, 6 min nəfər), Belçika (30, 5 min nəfər), Hollandiya (30 min nəfər), İtaliya (28, 5 min nəfər), Çili (20, 6 min nəfər), Türkiyə (17, 7 min nəfər), Uruqvay (17, 6 min nəfər), İsveç (15 min nəfər), Belarus (12, 9 min nəfər), Venesuella (12, 5 min nəfər), İspaniya (12 min nəfər), Latviya (9, 6 min nəfər) və digər dövlətlərdə də yaşayırlar.

Əslər boyunca bir sıra dövlətlərin tərkibində təbəə kimi yaşayan yəhudi icmalarının daxilində müxtəlif qruplar yaranmağa başladı. Bu etnik qruplar bir-birindən dil və mədəni xüsusiyyətlərinə görə kəskin surətdə fərqlənirdilər. Onlardan böyük əksəriyyəti yəhudi dilinin xüsusi dialekt və etnolektlərində danışırdılar.

Yəhudi xalqının etnik qruplara ayrılması müxtəlif prinsiplərə görə aparılır. Bir qrup etnoqraf yəhudiləri dil və mədəni xüsusiyyətlərinə, digər qrup isə coğrafi amilə görə təsnif edirlər.

Yəhudilər ***dil və mədəni xüsusiyyətlərinə görə*** başlıca olaraq iki qrupa ayrılırlar:

- ✓ aşkenaz yəhudiləri;
- ✓ sefard yəhudiləri.

***Aşkenaz yəhudiləri*** ("aşkenazim"). Aşkenaz yəhudiləri başlıca olaraq Qərbi və Şərqi Avropa, Şimali Amerika və İsraildə yaşayırlar. Yəhudilərin bu subetnik qrupu daha çox Hind-Avropa dil ailəsinin alman qoluna aid olan idiş dilində danışır.

Aşkenazlar öz adlarını Almaniyanın qərb hissəsindən götürmüşlər. Orta əsrlərdə Almaniyada Yafətin nəvəsi Askenazın nəslindən olan yəhudilərin məskunlaşdığı ərazi belə adlanırdı. Bu adlandırma Bibliya ilə əlaqəli idi. Bibliyada "aşkenaz" termini Ararat dağı ətrafında olan şəhərə işarə edir. Bu ada "Varlıq"

kitabında iki dəfə rast gəlini. Kitabda nəql olunur ki, Yafət bu ərazidə yaşamış və onun nəsilləri bu ərazidə artıb çoxalmışdır, Yafətin nəvəsi Askenaz xəzərlərin ulu babası Toqarma və Maqoqun qardaşı olmuşdur. Güman olunur ki, bu ad ilk dəfə yəhudilərə bu adın verilməsi XIV əsrdə meydana çıxmışdır.

XX əsrin sonunda aşkenazlar dünya yəhudilərinin 80%-i təşkil edirdilər və onların sayı ABŞ-da daha çoxdur. Lakin İsraildə aşkenazlar yəhudi əhalisinin yarısını təşkil edir. II Dünya Müharibəsi zamanı baş verən Holokost qırğınında qanlı qətliamın qurbanlarının böyük əksəriyyəti aşkenaz yəhudiləri idi.

Aşkenaz yəhudiləri almandilli hesab olunduqlarından onların tarixi adətən yəhudilərin Reyn çayı ətrafında məskunlaşmasından başlanır. Qədim dövrlərdə Reyn çayı Roma ilə alman tayfaları arasında sərhəd rolunu oynayırdı. Yəhudilərin bu ərazilərə gəlməsi I əsrdə Roma imperiyasının bir çox əraziləri işğal etməsi ilə bağlı idi. Müqəddəs torpaqların romalılar tərəfindən tutulmasından sonra yəhudilər kütləvi şəkildə imperiyaya daxil olan şəhərlərə köç edirlər. Artıq I əsrin sonlarında Alp dağlarından şimalda Qalliyada (müasir dövrdə Fransa başda olmaqla Qərbi Avropanın böyük bir hissəsinə verilən tarixi ad. Qalliya Şimali İtaliya, Belçika, İsveçrənin qərbi, Hollandiyanın bir qismi, Almaniyadakı Reyn çayının qərb sahilndəki bəzi bölgələri əhatə edirdi). 321-ci ilə Köln şəhərində yəhudi icması mövcud idi. Lakin etnoqraf tarixçilər hesab edirlər ki, bu icmanın üzvləri aşkenaz deyil, romalılarla sıx qan qohumluğu olan və yəhudilərin digər kiçik subetnik qrupu hesab olunan latındilli romaniotlar idi, çünki bu dövrdə idiş dili hələ təşəkkül tapmamışdı və imperiyanın rəsmi dili latın dili idi. Romaniotlar Əhəməni, Selevki və Roma imperiyalarından Bizans imperiyasının ərazisinə (indiki Türkiyə, Yunanıstan və digər ətraf ərazilər) köç etmiş yəhudi subetnik qrupudur. Güman olunur ki, romaniotlar VII əsrdə Qalliya kralı Daqobert tərəfindən Fransadan qovulmuş və bu ərazilərə gəlmişdilər.

801-ci ilə aid olan tarixi-etnoqrafik mənbələrdə Frank dövlətinin Axen şəhərində yaşayan İsaqın adı çəkilir. O, “aşkenaz yəhudilərinin ulu babası” hesab olunur. Böyük Karl onu Harun ər-Rəşidə səfir təyin edir. İsaqın belə yüksək vəzifəyə təyin olunması aşkenaz yəhudilərinin vəziyyətini yaxşılaşdırır. Artıq 960-cı ildə

Reyn sahilində çoxlu aşkenazlar yaşayırdı. X əsrdən başlayaraq Almaniyanın Vorms. Şpayer, Strasburq kimi bölgələrində bir sıra iudaizm mərkəzləri fəaliyyət göstərirdi.

Səlib yürüşləri dövründə (XI əsrdən başlayaraq) aşkenazlarla yerli əhali arasında gərginlik yaranır. Artıq XIII əsrdə yəhudilər fərqləndirici nişan gəzdirir (altıguşəli David ulduzu) və xüsusi ayrılmış yerlərə köçürülürdülər (getto). Bəzi yerlərdə onlar hətta tamamilə ölkədən qovulurdular. Məsələn, 1290-cı ildə qəbul edilmiş qərara görə yəhudilər İngiltərə ərazisindən qovulurlar.

Aşkenazların etnik kökləri haqqında digər bir fərziyyə də mövcuddur. “Xəzər fərziyyəsi” adlanan bu mübahisəli fərziyyəyə görə aşkenaz yəhudiləri Xəzər xaqanlığının iudaizmə tapınan sakinlərinin nəsilləridir. Xəzər xaqamlığının Kiyev knyazı I Svyatoslav tərəfindən işğal edilməsindən sonra xəzərlər Qərbi Avropaya köç edirlər. Həqiqətən də bu dövrdə aid tarixi sənədlərdə heç bir yəhudi bağı olmayan bir qrup türkdilli köçəri tayfalarının Şərqə köçü haqqında məlumatlar mövcuddur. Bu  fərziyyəyə görə məhz xəzərlərin nəsilləri sonradan aşkenazların əsasını qoymuşlar və bu yəhudilərin Erets İsraillə heç bir bağə yoxdur.

Aşkenazların etnik kökləri haqqında mövcud olan iki fərziyyədən birincisi demoqrafik və digər faktlar baxımından daha həqiqətə uyğundur. Belə ki, idiş dilində türk mənşəli sözlərin olmaması xəzərlərin aşkenazların etnogenezinə təsirinin olmamasına işarə edir. İdiş dilinin lüğət tərkibinin 70 %-i məhz alman dialketlərindən, 20 %-i hebraizmləridən və 10 %-i isə slavyan sözlərindən ibarətdir.

2010-cu ildə Nature elmi jurnalının genetik araşdırmalarının nəticəsi kimi müəyyən olundu ki, xəzərlərlə Şərqi-Avropa yəhudilərinin qan bağları 12, 5 % uyğun gəlir. Genetika üzrə professor L.Çernin qeyd edirdi ki, bu yəhudilər daha çox Yaxın Şərqdə yayılan qaploqruplara uyğun gəlir və onların xəzərlərlə heç bir qohumluğu yoxdur. 2012-ci ildə doktor H.Oostrer “Miras: yəhudi xalqının genetik tarixi” əsərində 20 illik araşdırmalarının yekunu kimi belə nəticəyə gəldi ki, bütün yəhudi etnik qrupları eyni şərq köklərinə malikdirlər, istər aşkenaz, istərsə də sefard yəhudiləri cəmi 30 % avropa köklərinə malikdirlər.

Lakin 2013-cü ildə dünya yeni bir iddia ilə silkələndi. 1237 nəfər Şərqi Avropa yəhudisi üzərdində aparılan tədqiqatlara rəhbərlik edən doktor Eran Elxaik tədqiqatın nəticələrini "Genome Biology and Evolution" jurnalında nəşr etdirir. Tədqiqatın nəticələrinə görə Mərkəzi və Şərqi Avropa yəhudilərinin böyük bir qisminin ulu əcdadı V-XII əsrlərdə Yaxın Şərq və İkiçayarasından Xəzər xaqanlığına gələn və X-XIV əsrlərdə xaqanlığın süqutundan sonra qərbə köç edən xəzərlərdir. E.Elxaik iddia edirdi ki, aşkenazların formalaşmasında genetik mənbə məhz xəzərlərdir və aşkenazların Reyn çayı boyunca məskunlaşanyəhudilərlə heç bir bağı yoxdur. 2016-cı ildə o, özünün yaratdığı "genetik GPS" metodunu tətbiq edərək iddia etdi ki, aşkenazların əcdadları qədim dövrlərdə müasir Türkiyənin şimal-şərqində yaşamışlar. Bu ərazi Türkiyədəki İskenaz (40° 9'N, 40° 26') Eskenaz (40° 4'N, 40° 8'E) və Aşanaz (40° 5'N, 40° 4'E) bölgələridir. Elxaikə görə aşkenazların əcdaları bu bölgələrdə yaşayan yunandilli tayfalar idi, "aşkenaz" etnonimi isə assur və babillərin skifləri adlandırdığı "aşquza" sözündən yaranmışdır. 690-cu ildə Bizans təqibləri nəticəsində onlar Xəzər xaqanlığına köç edirlər. Lakin Elxaikin bu iddiaları bir sıra genetiklər tərəfindən (R.Xan, M.Hammer, M.Feldman,D.Kats, P.Fleqontov, A.Kasyan) tənqid olunmuş və elmi əsaslara malik olmayan fərziyyə kimi qəbul edilmişdir.

***Sefard yəhudiləri*** ("sefardim") öz adlarını İspaniyadan götürmüşlər (İspaniya ibri dilində "Sfarad" adlanır). İspaniya, Portuqaliya, İtaliya, Şimali Afrika, İstanbul, Anadolu, Egey adaları və Bizans İmperiyasından olan yəhudilər bu adla xatırlanır.

Sefardların dilinin hansı dil olması ilə bağlı tarixi mənbələrdə ziddiyyətli fikirlərə rast gəlinir. Güman olunur ki, XV əsrə qədər sefardlar ərəb, ispan sözləri ilə zəngin olan ibri, XVI əsrdən sonra isə yəhudi-ispan dili hesab olunan, Kastiliya ləhcəsini xatırladan, türk, ibri və yunan sözləri ilə zəngin olan və roman dillərinin iber-roman yarımqrupuna daxil olan ladino dilində danışırdılar. Hal-hazırda ladino ölü dillər sırasına daxil edilmiş və unudulmuşdur. Lakin müasir İsraildə fəaliyyət göstərən bəzi sefard əsilli mədəniyyət nümayəndələri bu dildə yaradıcılıqla məşğul olurlar. XX əsrin 60-cı illərində sefardların sayı 500 minə yaxın idi. Sefardlar həm də ibri dilində danışırlar.

“Sefard” terminindən ilk dəfə XV əsrdə yəhudilərin Portuqaliya və İspaniyadan qovulmasından sonra istifadə olunmuşdur. 1492-ci ildə Rekonkistanın bitməsindən sonra xristianlığı qəbul eləməkdən imtina edən yüz minlərlə romandilli yəhudi ölkədən məcbur çıxarıldı. Bu yəhudilərin böyük bir qismi osmanlı türkləri tərəfindən imperiyada yaşamağa dəvət olunurdu. Osmanlı imperiyasına köç edən yəhudilərin imperiyanın tərkibinə daxil olan balkan şəhərlərində yerləşdirilməsinin əsas səbəbi hakim dairələrin yunan və xristian slavyanların yenidən əldə edilmiş yerlərə qayıtması qorxusu idi.

Sefard yəhudilərinin Priney yarımadasına gəlməsinin qədim və maraqlı tarixi var. Güman olunur ki, sefardlar Roma imperiyası və Xilafət tərkibində yəhudilərin köç etməsi nəticəsində Primey yarımadasına gəlmişlər. Sefardlar İspaniyada qədim dövrlərdən məskunlaşmışlar. Bəzən bu tarixi Tövrat dövrünə aid edirlər. “Hakimlər” kitabında anılan mis (və ya qızıl) axtaran İsrail ekspedisiyasının məhz İspaniyaya gəlməsini bildirirlər. İspaniyaya gəlmiş yəhudilərin Qüdsdəyaşamış İuda və Benjamin nəsillərindən olması bildirilir ki, onların da soy kökü Yaqub peyğəmbərə bağlanır. Bəzən onların gəlişini e.ə. VI əsrdə Qüdsdə Süleyman peyğəmbərin məbədinin dağılmasından sonrakı yəhudi köçləri ilə bağlayırlar. Bu zaman yəhudilərin böyük qismi Babilistan ərazisində yaşamış, başqa bir qismi isə digər ölkələrə, o cümlədən İspaniyaya köçmüşlər.

Sefard və aşkenazlar eyni köklərə malik olsalar da göründüyü kimi onların dilləri və mədəni xüsusiyyətləri arasında bir sıra fərqlər mövcud olmuşdur. Artıq XVII əsrdə sefard yəhudiləri ilə aşkenaz yəhudləri arasında mövcud olan bu fərqlər daha da kəskinləşdir. Bu dövrdə sefard yəhudiləri yəhudi sosial-ictimai həyatında daha aparıcı idilər. Onlar həm zənginlikləri, həm təhsilli olmaları, həm də ticarət sahəsindəki uğurları ilə aşkenaz yəhudilərini üstələyirdilər. Sefardlar yaşadıqları ölkələrin yerli əhalisinə təsir edir, onlara hətta iudaizmi qəbul etdirirdilər. Aşkenazlar isə qeyri-yəhudilərlə demək olar ki, heç bir münasibət qurmur, mədəniyyəti yalnız dini aspektdə inkişaf etdirirdilər. Avropa hakim dairləri sefardlara daha çox üstünlük verirdilər. Çünki sefardlar həm sənətkar, həm də mütəfəkkir kimi onların diqqətini cəlb edirdilər. Sefardlar İspaniyadan

qovulduqdan sonra gizli yollarla öz qızıl və qiymətli əşyalarını da İspaniyadan çıxarmağa müvəffəq olmuşdular. Sefardlar daha çox iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə üstünlük verirdilər. Çünki belə dövlətlərdə yəhudi ticarətini inkişaf etdirmək daha rahat olardı.

Yəhudilərin ***coğrafi əraziyə görə bölgüsü*** aşağıdakı şəkildə aparılır:

1) Avropa yəhudiləri:

- ✓ aşkenaz yəhudiləri;
- ✓ sefard yəhudiləri;
- ✓ roma yəhudiləri – "romim" – italyan dilində danışan və sefard və aşkenaz yəhudilərindən liturgik ənənələri ilə fərqlənən yəhudilər. Roma yəhudiləri I əsrdən başlayaraq tarixdə yer almışlar.
- ✓ kenaanimlər – "knaanim" – tarixən mövcud olan və sonradan aşkenaz yəhudilərinə qaynayıb qarışan slavyandilli yəhudilər;
- ✓ romaniotlar – "romaniotim" (yuxarıda məlumat verilib);
- ✓ xutlar – sefard və aşkenaz yəhudilərinin qarışıq icması. İcma üzvlərinin böyük bir qismini holland yəhudiləri təşkil edir. Onların Hollandiya ərazisinə nə zaman gəldiyi dəqiq məlum olmasa da , XIX əsrdə bu yəhudilərin Londona köç etdiyinə dair tarixi məlumatlar mövcuddur. Bu gün bu yəhudilər Londonun yerli əhalisi arasında assimilyasiyaya uğramışdır.
- ✓ provansal yəhudilər – tarixən Fransanın cənubunda yaşamış və provansal dilinin yəhudi dialektində yaşayan yeganə yəhudilər. Güman olunur ki, yəhudilər 1501-1791-ci illərdə bu ərazidə yaşamışlar. 1977-ci ildə bu dilin son daşıyıcısı da vəfat etmiş, bununla da provansal yəhudilərinin Fransanın cənubundakı tarixi sona yetmişdir.

2) Qafqaz yəhudiləri:

- ✓ dağ yəhudiləri (növbəti mövzuda geniş məlumat veriləcək);
- ✓ gürcü yəhudiləri – kivruli (gürcü dilinin dialekti) dilində danışan və yazıda gürcü əlifbasından istifadə edən yəhudilər. Güman olunur ki, gürcü yəhudilərinin bir qrupu b.e.ə. VI əsrdə, digər qrupu isə b.e.ə. I əsrdə Kartli bölgəsinə gəlimişlər. Gürcü tarixi ənənəsinə görə, yəhudilərinin I qrupunun Gürcüstana gəlməsi Qüdsün Navuxodonosor tərəfindən istilası dövrünə təsadüf edir (b.e.ə. 586-cı il). Digər qrupun köç etməsinin dəqiq tarixi isə arxeoloji qazıntılar zamanı aşkarlanan əşyalardan müəyyən edilmişdir. Bu qrup Kartli dövlətinin paytaxtı Mtsxetə gəlmiş, burada icma yaratmışlar. Gürcü yəhdudilərinin böyük qrupu 1970-1990-cı illərdə İsaril və ABŞ-a köç etmişlər.

3) Krım yəhudiləri:

✓ krımçaklar – yəhudilərlə türklərin qaynayıb-qarıçasından törəmiş yəhudilər. Krımçak yəhudiləri krım-tatar dilində yaxın olan dilində danışır. Krımda yəhudilər I əsrdən yaşamağa başlasalar da, krım ənənəsinə görə onların bu əraziyə gəlməsi Xəzər xaqanlığının mövcudluğu dövrünə təsadüf edir (VII əsr). Bu gün də Krımda azsaylı üzvdən ibarət yəhudilər yaşayır;

✓ karaimlər – karaim icmasının yaranması XIII əsrə təsadüf edir. Güman olunur ki, karaimlər Krım bölgəsinə krımçıkların bir qrupu ilə birlikdə gəlmiş, sonradan onlardan ayrılaraq digər ərazilərə (başlıca olaraq Çufut Qalaya) yayılmış, burada özlərinin icma və mərkəzini yaratmışlar. XV əsrə aid mənbələrdə onlar haqqında geniş məlumatlara rast gəlmək olar;

4) Şimali Afrika, Yaxın və Orta Asiya yəhudiləri ( bu qrup həm də “ərəb yəhudiləri” adı altında da tanınır - “mizraxi”lər):

- ✓ laxluxlar – kürd yəhudiləri adlanan bu yəhudilər xüsusi etnolinqvistik qrup kimi fərqlənir. Yəhudi-arami dilində danışan bu

yəhudilər Kürdistanın bəzi bölgələrində yayılmışlar. Yəhudi-arami dilinin bəzi dialektlərində danışan bu yəhudilərin Kürdistan ərazisinə gəlməsi XII əsrə təsadüf edir. Tarixi yazılı mənbələrdə də bu haqda məlumata rast gəlinir. XX əsrdə onların demək olar ki, hamısı İsrailə köç etmişlər;

- ✓ ərəbdilli yəhudilər (yahudlar) – ərəb-yəhudi dilinin müxtəlif dialektlərində danışan yəhudilər. Bu termin ilk dəfə olaraq fransız alimi Alber Memmi tərəfindən elmə daxil edilmişdir. O, Yehuda Şenxavın "Ərəb yəhudiləri – milli mənsubiyyət, dil və tarixilik" əsərini oxuduqdan sonra ilk dəfə bu termindən istifadə etmişdir. ;
- ✓ Marokko yəhudiləri – hal-hazırda İsraildə 250 min nəfərdirlər. Bu yəhudilər ərəb dilinin yəhudi-marokka dialektinin bir neçə formasında və bərbər dilində danışırlar ;
- ✓ Əlcəzair yəhudiləri – Əlcəzair müstəqillik qazandıqdan sonra Fransaya köç edən və əsasən fransızca danışan yəhudilər. Əlcəzair yəhudilərinin bir qismi sonradan İsrailə köçmüşdür. 1870-ci ilə qədər Əlcəzairdə 140 min yəhudi yaşayırdı ki, onlarında böyük bir qismi bərbər dilində danışan sefardlar idi. 1962-ci ildən sonra burada cəmi 10 min yəhudi qaldı, lakin onların da böyük bir qismi 1990-cı ildə ölkəni tərk etdi;
- ✓ Tunis yəhudiləri – 1948-ci ildə Tunisdə 105 min nəfər yəhudi yaşasa da, 1967-ci ildə onların böyük bir qismi Fransa və İsrailə köç edir. 2004-cü ildə Tunisdə 1500 yəhudi vardı, onlar da əsasən Cerba adasında yaşayır və bərbər dilində danışırlar;
- ✓ Liviya yəhudiləri – əsrin əvvəllərində Liviyanın Tripoli, Benqazi şəhərlərində 21 min nəfər yəhudi yaşasa da, onların böyük bir qisi İtaliya, ABŞ və İsrailə köç etmişdir. 2002-ci ilin statistik məlumatlarına görə Liviyada 1 nəfər yəhudi qadın yaşayırdı. Liviya yəhudilərinin dialekti bədəvi dialektlərinə yaxındır;

- ✓ Misir yəhudiləri – yəhudilərin Misirə kütləvi şəkildə gəlməsi ellin dövrünə təsadüf edir. Bu dövrdə yəhudilər İskəndəriyyə şəhərinin əhalisinin böyük bir qismini təşkil edirdilər. Sənətkarlıq bacarıqları ilə fərqlənən yəhudilər hakim dairələrinin rəğbətini qazanmışdılar. Sonradan ərəb işğalları dövründə babil yəhudiləri, səlib yürüşləri zamanı sefardlar, XVIII-XIX əsrlərdə ticarətlə məşğul olan italyan yəhudiləri, XIX əsrin sonu XX əsin əvvəllərində Aleppodan olan yəhudilər də onlara qoşuldu. Lakin Bibliya mənbələrinə görə Süleyman şah misirlilərlə 500 illik ədavətə son qoymuş və barışıq rəmzi kimi fironun iudaizmi qəbul edən qızı ilə evlənmişdir. Süleymana qarşı üsyan edən Yerobam da Misirdə məskunlaşaraq başına çoxsaylı yəhudi yığmşdı. Eyni zamanda güman olunur ki, yəhudilər ilk dəfə Misirə Yəhuda çarlığının və I Məbədin süqutu dövründə gəlmişlər. Lakin Bibliyaya görə yəhudi xalqının atası hesab olunan İbrahim peyğəmbər bir müddət Misirdə məskunlaşmış, sonradan Erets-İsrailə gəlsə də, onun törəmələri burada qalmışlar. Eyni zamanda tarixən bizə məlumdur ki, İbrahimin nəticəsi, Yaqubun oğlu Yusif qardaşları tərəfindən ismellilərə qul kimi satıldıqdan sonra Misirə gəlmiş, özünün fövqəl zəkasına görə fironun sevimlisinə olmuş və faktiki olaraq Misirin idarəçisinə çevrilmişdir. Aclıq Yusifin atası Yaqub aclıq dövründə öz oğulları ilə Misirə gəlmiş, Yusifin əfvinə nail olduqdan sonra fironun onlara bağışladığı Qesem bölgəsində məskunlaşmışdılar. Musa peyğəmbərin də Misirdə böyüməsi, sonradan öz xalqını Allahın buyuruğu ilə Misir köləliyindən azad etməsi də yəhudilərin Misirlə bağlılığına işarət edir. XX əsrin əvvəllərində Misirdə 100 minə yaxın yəhudi yaşayırdı. Bu yəhudilər başlıca olaraq ərəb, sefard ibrisi, ingilis, fransız dillərində danışırdılar. XX əsrin I yarısında Misirdə Rusiyadan çıxan yəhudilərin böyük icması fəaliyyət göstərirdi. 1947-ci ildə əhalinin siyahıyaalınmasına görə Misirdə 65 min nəfər yəhudi vardı.

Sonradan onların böyük bir qismi ABŞ, Fransa, Aregntina, Braziliyaya köçmüşdür. Misirdə həmçinin karaim icması da fəaliyyət göstərir. İcmanın bütün üzvləri yaşlı insanlardır;

- ✓ Suriya yəhudiləri – suriya yəhudiləri 2 yarımqrupa ayrılırdılar:
  - ərəbdilli yəhudilər – "mustarabi" – qədim dövrlərdən Suriyada yaşayan yəhudilər;
  - sefardlar – 1492-ci ildə Osmanlı sultanının dəvəti ilə Suriyaya ələn yəhudilər. XVI əsrdə sefardlar ərəb dilinə keçdikdən sonra iki qrup vahid qrup halında birləşdi.

XX əsrin əvvəllərində Suriya yəhudilərinin böyük bir qismi ABŞ, Braziliya, Argentina, Böyük Britaniya və Fələstinə köç edir. 1920-ci ildə Suriya Fransanın mandat ərazisinə çevriləndə vacib yəhudi icmaları yalnız Dəməşq, Hələb və laxluxların yaşadığı Qamışlıda qalmışdı. 1947-ci ildə Suriyada yəhudilərin sayı 15-16 min nəfərə bərabər idi ki, onlardan 10 mini Dəməşq, 5 mini Hələb, çox az qismi isə Qamışlıda yaşayırdı. 1995-ci ilin ortalarında Dəməşqdə cəmi 300 nəfər, Qamışlıda 90 nəfər yəhudi yaşayırdı. 2000-ci illərin əvvəllərində Suriyada 100 nəfər ahıl yaşlı yəhudi yaşayırdı.

- ✓ Livan yəhudiləri – başlıca olaraq Beyrut, Sidon və druz kəndlərində yaşayan yəhudilər. İsrail dövləti yarandıqdan sonra Livan yeganə ərəb dövləti idi ki, burada əhalinin sayı əvvəlki dövrlə müqayisədə daha çox idi (1948-ci ildə 5200 nəfər, 1951-ci ildə 9000 nəfər). 1967-ci ildə 2500 nəfər Beyrutu tərk edir. 1970-ci illərdə Livanda 1500 nəfər yəhudi yaşayırdı. Livanı tərk edən yəhudilərin böyük bir qismi Fransa və ABŞ-a köç edir. Çox az sayda yəhudi Livandan İsrailə köç etmişdir. 2006-cı ildə Livanın xristian hissəsində cmi 40 nəfər yəhudi yaşayırdı;

- ✓ Mista aravimlər – “ərəbləşmiş yəhudilər” – orta əsrlərdən başlayaraq XIX əsrin sonlarınadək Fələstin torpaqlarında yaşayan ərəbdilli yəhudilər;
- ✓ İraq yəhudiləri – (“bavlim”) b.e.ə. VI əsrdə Babil əsarəti dövründə formalaşan birinci yəhudi diasporasının qalıqları hesab olunan yəhudilər. İraq yəhudiləri 2 qrupa ayrılılar:
  - şimallı kürdistan yəhudiləri (laxluxlar);
  - ərəbdilli yəhudilər.

  1920-ci ildə əhalinin siyahıyaalınması zamanı İraqın yəhudi əhalisinin sayı 87,5 min nəfərə bərabər idi ki, onlardan 50 min nəfəri Bağdad, 7 min nəfəri Bəsrə, 7,5 min nəfəri Mosulda və 5 min nəfəri Ərbildə yaşayırdı. 1948-ci ildə ölkədə təqribən 150 min yəhudi yaşayırdı. 1950-ci ilin mart ayında yəhudilərə ölkəni tərk etməyə icazə verildi və yəhudilər “Ezra və Mehemiya əməliyyatı” adını almış yəhudi agentliyi vasitəsilə kütləvi şəkildə ölkəni tərk etməyə başladılar. 1948-1951-ci illərdə ölkəni 1230 min yəhudi tərk etdi. 2003-cü ilin aprel-may aylarında İraqda qalan 34 nəfər yəhudidən 23-ü İsrailə kpç etdi. İraq yəhudilərinin böyük bir qismi XVII-XVIII əsrlərdə Hindistanın Bombey, Kəlküttə, Puna və Surat şəhərlərinə köçmüşdülər.
- ✓ Yəmən yəhudiləri – “teymanim” – şərq yəhudiləri içərisində dini ayinlərinin müxtəlifliyinə, tələffüz və geyimlərinə görə fərqlənən yəhudilər. 1948-ci ildə Yəməndə 63 min nəfər yəhudi yaşasa da, 2001-ci ildə onların sayı 200-ə bərabər idi. Yəmən yəhudiləri başlıca olaraq ölkənin şimalında Saada şəhərində yaşayır, sənətlkarlıq və xırda ticarətlə məşğul olurlar;

- ✓ Oman yəhudiləri – orta əsrlərdə Maskat və Sura ərazisində yaşayan yəhudilər. 1828-ci ildə müsəlman təqibindən qaçan azsaylı yəhudi bu ərazilərə gəlmiş, lakin 1900-cu ildə oradan İsrailə köç etmişlər;
- ✓ Bərbər yəhudiləri – qədimdə müasir Əlcəzair. Tunis və Marokko ərazisində bərbərlərlə kompakt halda yaşayan və yəhudi-bərbər etnolektasında danışan yəhudilər. Hal-hazırda demək olar ki, hamısı İsrailə köçmüşlər. Şimali Afrika yəhudilərinin rəvayətlərinə görə ilk bərbər yəhudi ailələri Süleyman şahın dövründə Tunis sahilindəki Cerba adasında məskunlaşmışlar. Bu rəvayətlərə görə buradakı icma Afrika bölgəsində ən qədim yəhudi icmasıdır. Bir çox etnoqraf arxeoloqlar güman edirlər ki, bərbər yəhudiləri qədim dövrlərdə Karfagendə də yaşayıblar. Lakin tədqiqatlar göstərdi ki, onların bu əraziyə gəlməsi roma işğalları dövrünə təsadüf edir (b.e.ə. 146-cı il). Yəhudilərin Karfagenə kütləvi köçü II-IV əsrlərə təsadü edir. Güman olunur ki, bu, II Məbədin süqutundan sonra və Bar-Koxba üsyanının qanlı şəkildə yatırılmasından sonra baş verən yəhudi köçü ilə əlaqədar idi. Karfagendə aparılan arexeoloji tətqiqatlar zamanı bir neçə menoranın tapılması bu ərazilərdə yəhudilərin tarixi mövcudluğunu bir daha sübut edir.
- ✓ İran, Əfqanıstan və ön Asiya yəhudiləri – “parsim” adlanan və zeboni imrani dilində danışan yəhudilər. Müxtəlif dillərdə danışdıqlarına görə 3 əsas yarımqrupa ayrılırlar:
    - fars yəhudiləri – əslən İrandan olan və yəhudi-fars və yəhudi-iran dialektlərinə danışan yəhudilər;
    - buxara yəhudiləri – əslən Özbəkistandan olan və tacik dilinin müxtəlif dialektlərində danışan yəhudilər. Mənbələrdə rast gəlinən məlumatlara görə Buxarada ilk yəhudi icması XIII əsrdə yaranmışdır. Lakin bu icma monqollar tərəfindən tamamilə məhv edilmişdir. 1400-cü ildə Teymurləng

toxuculuq sənayesini inkişaf etdirmək üçün iran yəhudilərini Səmərqənd və Buxaraya köçürdü. Yəhudilər boyaçı və toxucu kimi çalışırdılar. Bəhs edilən dövrdə buxara yəhudisini boyalı əllərindən tanımaq olardı. Yəhudilər Buxarada tacik dilində "mahalayi yahudiyon" adlanan kiçik qəsəbədə yaşayırdılar. Onlara başqa yerlərdə yaşamaq qadağan olunmuşdu. Yəhudi dükanları müsəlman dükanları ilə müqayisədə daha alçaq yerdə tikilməli idi. Bütün bu məhdudiyyətlərə baxmayaraq yəhudi tacirləri gəlirli ticarət müəssisələri yaradır, ticarətdə və toxuculuqda inkişaf edirdilər. Təsadüfi deyil ki, XV əsrdə yəhudi qadının işlədiyi tikmə nümunələri bütün dünyada məşhur idi. Buxaradakı yəhudi icması gözəl sinqaqoq də tikdi. Sinaqoq növbəti beş əsr boyunca yəhudilər əsas ibadətgahı kimi xidmət etdi. XVI əsrin sonu XVII əsrin əvvəllərində Buxarada xüsusi yəhudi kəndi yaranır. Kənddə qeyri-yəhudilərin yaşaması qadağan di. 1720-ci ildə Səmərqənddə baş verən zəlzələdən sonra Səmərqənddə yaşayan bütün yəhudilər də Buxaraya köçür. Qeyd etmək lazımdır ki, Buxara yəhudiləri yəhudi ədəbiyyatına da qiymətli töfhələr də vermişlər. XVIII əsrin I yarısında şair Yosef ben İsaqın Makkaveylərə həsr etdiyi "Antioxun kitabı" və aqqada hekayəsi əsasında yazılmış "7 qardaş" poemaları uzun müddət Buxara yəhudilərinin sevimli kitabı olmuşdur.

- əfqan yəhudiləri – əslən Əfqanıstandan olan və yəhudi-fars dilində danışan yəhudilər (dari dili). Bu yəhudilər X-XI əsrlərdən Əfqanıstanda yaşayırdılar. Onların hamısı XX əsrin ikinci yarısında İsrail dövləti qurulduqdan sonra İsrailə köç ediblər. Bu gün Əfqanıstanda bir dənə də olsa yəhudi yaşamır. Erkən orta əsrlərdə Əfqanıstan ekzilarx və ya Mesopotomiyakı yəhudi icma rəhbərliyi tərəfindən rədd edilən kəslərin sürgün

yeri idi. Əfqanıstanda ən vacib yəhudi icması Balxda mövcud idi. Ərəb və yəhudi mənbələrinə görə X-XI əsrlərdə Qaznada yəhudi icması mövcud olmuşdur. Eyni zamanda ərəb coğrafiyaçıları X əsrdə Kandagar və Kabulda mövcud olan yəhudi icmalarından da yazırlar. Kabul yaxınlığında tapılan və 1365-ci ilə aid edilən yəhudi dilində qəbirüstü abidə burada yəhudi icmasının mövcudluğunu sübut edir. Eyni zamanda, Qor bölgəsi ərazisində XII-XIII əsrlərə aid edilən yəhudi və fars dilli tapntılar da tarixən Əfqanıstanda yəhudilərin yaşadığına nümunədir. XV-XVII əsrlədə Əfaqanıstanda yəhudi icmasının tarixinə aid heç bir məlumata rast gəlinmir. Güman olunur ki, bu dövrdə yəhudi icmaları inkişafdan kənar qalmışlar. 1839-cu ildə Xorasanda baş verən yəhudilərinin ketləvi şəkildə müsəlmanlaşdırılması prosesindən sonra 1840-cı illərdə Əfqanıstana çoxlu sayda yəhudi gəlir (40 min nəfər). XIX əsrin sonunda əfqan yəhudiləri Fələstinə köç etməyə başlayırlar. 1933-cü ildə yəhudilər Əfqanıstanda yalnız Kabul, Herat cə Balxda yaşayır və onlara xüsusi icazə olmadan yaşayış yerini tərk etmək qadağan idi. Balxda hətta gecələr darvazalar bağlanır və yəhudilərin şəhərdən çıxmağına icazə verilmirdi. 1952-ci ildən başlayaraq yəhudi gəncləri ordu sıralarına cəlb olunmurdular. Onları nə dövlət orqanlarına işə qəbul edir, nə də onların övladlarınının ali dövlət təhsil müəssisələrində təhsil almasına icazə verilmirdi. 1973 və 1978-ci illərdə ölkədə baş verən vətəndaş müharibələrindən sonra ağır həyat şərtləri və kasıblıqdan əziyyət çəkən yəhudilər tamamilə Əfqanıstanı tərk etdilər.

5) Hindistan və Uzaq Şərq yəhudiləri:

- ✓ Koçin yəhudiləri – Hindistanın Kerala, Koçi, Ernakulam, Şimali Paravur, Aluva ştatlarında yaşayan və malayalam dilində danışan yəhudilər. Güman olunur ki, onlar bura I minillikdə ilk öncə Malabar sahillərinə gəliblər, sonradan isə adları qeyd olunan bölgələrə yayılıblar. Hal-hazırda bütün koçin yəhudiləri İsrailə köç edib.
- ✓ Bney İsrael – Bombey və ona yaxın olan ərazilərdə yaşayan yəhudilər. Bu yəhudilər maratxi dilində danışırdılar;
- ✓ Bağdad yəhudiləri – Bağdad şəhərindən Hindistanın Bombey, Kəlküttə, Puna, Surat şəhərlərinə köç edən və ingilis və ərəb-yəhudi dialektində danışan yəhudilər;
- ✓ Bney menaşe – Manipur və Mizoram ştatlarında mizo və kuki tayfalarını təmsil edən yəhudilər. Onlar 1970-ci illərdə elan elədilər ki, Manasseylərin (Manasi) nəslindəndirlər və iudaizmə tapınmağa başladılar;
- ✓ Bene efrayimlər – Hindistanın Andra-Pradeş ştatında yaşayan və 1981-ci ildə iudaizmi qəbul edən yəhudilər;
- ✓ Çin yəhudiləri – Xenan bölgəsində yaşayan və çin dilində danəşan yəhudilər. Güman olunur ki, yəhudilər bura X əsrdə  Ön Asiya və İrandan gəliblər.

6) Digər Afrika yəhudiləri:

- ✓ Həbəşistan yəhudiləri – yerli əhali bu yəhudiləri “falaşa” adlandırır. Qez dilində bu söz “gəlmələr” mənasını ifadə edir. Tarixi mənbələrdə bu yəhudilərə “beta Yisrael” (“İsrail evi”) də deyirlər. Falaşalar 1980-ci illərin əvvəllərinə qədər kütləvi şəkildə Həbəşistanın (Efiopiyanın) şimal və şimal-qərbində yaşayan yəhudilərin xüsusi etnolinqvistik qrupudur. Həbəş yəhudiləri Tan gölü ətafında və ondan şimalda yaşayırdılar. XX əsrin II yarısında Sekelt, Dembia, Semien və xüsusən də Qondar (hal-hazırda Amxar bölgəsi)

bölgələrində yaşayan bu yəhudilərin böyük əksəriyyəti təsərrüfatla və sənətkarlığın müxtəlif formaları ilə (dulusçuluq, iplikçilik, toxuculuq, dəmirçilik və zərgərlik) məşğul olurdular. Yəhudilərin bu bölgələrə nə zaman gəlməsinin dəqiq tarixi yoxdur. Həm yerli əhali, həm də yəhudilər tərəfindən qəbul edilən həbəş rəvayətinə görə Həbəşistanda hakim olan "Süleyman sülaləsinin" əsasını yerli dildə "nquse neqest" ("şahların şahı") adlandırılan I Menelik qoymuşdu. I Menelik Süleyman şahla Bilqeys Zişərhin qızı Səba məlikəsi Meakidanın oğlu idi. Həbəş yəhudiləri özlərini I Menelikin törəmələri hesab edirlər. Həbəş yəhudilərinin mınşəyi haqqında ziddiyyətli nəzəriyyələr mövcuddur. Etnoqraf və arxeoloqlar bu yəhudilərin mənşəyi haqqıdna vahid razılaşmaya gələ bilmirlər. Bəzi nəzəriyyə tərəfdarları iddia edirlər ki, həbəş yəhudiləri kuş mənşəli olub I minillikdə Həbəşistana sami tayfalarının gəlməsinə qədər yerli əhalinin böyük əksəriyyətini təşkil edən aqau qəbilələrinə aiddirlər. Güman olunur ki, aqau qəbiləsi misirdən gələn yəhudilər tərəfindən yayılan iudaizmə tapınırdı. Həbəş tarixçiləri güman edirlər ki, Həbəşistanın şimalında yerləşən Aksum Çarlığında iudaizm xristianlığın yayılmasına qədər (IV-V əsrlər) geniş yayılmışdı. Sonradan hakim dairələr tərəfindən başlanan dini təqibə görə yəhudilər bu bölgəni tərk edərək dağlıq ərazilərə çəkildilər. Lakin digər fərziyyəyə görə beta-Yisraelin yerli tayfalarla heç bir qan qohumluğu yoxdur.

## YƏHUDİ CƏMİYYƏTİNDƏ AİLƏ VƏ ONUN FƏRDLƏRİNİN ƏSAS YERİ

***Yəhudi ailəsinin əsas xüsusiyyətləri və kişinin yəhudi ailəsində rolu.*** Yəhudi cəmiyyətində ailə həm sosial, həm də dini baxımdan böyük əhəmiyyət kəsb edir. Bildiyimiz kimi, ailə anlayışı Şərqdə və Qərbdə fərqlidir. Belə ki, şərq xalqlarında

ailə daha çox eyni evdə yaşayan, ya da eyni nəsildən gələn insanların cəmidir. Qərbdə isə ailə ana-ata və uşaqların birgəliyi mənasını verir. İsraildə ailə həm qərb, həm də şərq ünsürlərini və anlayışlarını özündə ehtiva edir.

Yəhudilər ailəni kiçik dövlət kimi qəbul edirlər. Bu dövlətdə yaşayan hər bir kəsin hüquq və vəzifələri var. Valideynlər uşaqlara qayğı göstərir, onları tərbiyəli, sağlam övlad kimi böyüdürlər. Uşaqlar həmişə valideynlərinin zəhmətini nəsihətlərinə qulaq asmalı, ailənin qayda və qanunlarına əməl etməlidirlər. Qeyd etmək lazımdır ki, yəhudi cəmiyyətində ailə dini qanunlara dayanır. Eyni zamanda indiki dövrdə İsraildə dünyəvi ailələrin də sayı dayanmadan artır.

Yəhudi ailəsi qədim dövrlərdən bəri monoqamiya formasına (təkarvadlılıq) üstünlük verir. Lakin arvad övlad dünyaya gətirə bilmirsə, kişi yenidən evlənə bilərdi. Qədim dövrlərdə ikinci arvad adətən birinci arvadın qulluqçusu hesab olunurdu. Lakin əgər kişi istəsə hər iki qadına bərabər hüquq verə bilərdi. Qədim dövrlərdə isə yəhudi şahları poliqamiyadan (çoxarvadlılıq) istifadə edirdilər. Bu və digər şahın bir neçə arvadı ola bilərdi. Bu, daha çox siyasi əhəmiyyət kəsb edirdi. Şahlar barışıq rəmzi olaraq digər dövlətlərin başçılarınən qızları ilə nigaha girirdilər.

Yəhudi cəmiyyətində ailə çox vacibdir. Yəhudi qanunlarına görə ailədə kişi-qadın münasibəti insanlar Allahın münasibətinə bənzəyir. Talmudda deyilir: “Əgər kişi ilə qadın arasında münasibət yaxşıdırsa Allah onlarladır (Sota, 17)”. “Kişi qadınsız yaşaya bilməz, qadın isə kişisiz və onların ikisi də Allah olmasa yaşaya bilməzlər (Braxot 9:1)”. Yəhudilərə görə iki nəfər arasında sevgi xupa mərasimdən sonra başlayır: əsl sevgi evliliklə başlayır. Cütlüklər ailə qurduqdan sonra bir-birini daha yaxşı tanımağa və daha düzgün formada sevməyə başlayırlar.

Yəhudilər ailə münasibətləri Tövrata görə tənzimləyirlər. Tövratda nigahın qadağan olunduğu üç qohumluq növündən danışılır (Levilər, 18:6-18, 20:11-14,17,19-21). Eyni zamanda, Tövrat hansı nigahların daha xeyirli olduğunu da deyir. Yəhudilərin həyatında vacib olan “10 qanun” ailədə hər iki valideynin fikrinə və mövqeyinə hörmətlə yanaşmağı tələb edir.

Tövratda ailə "qalaya" bənzədilir. "Varlıq" kitabında nəql olunur ki, bu "qalanın" təməli möhkəm olmalıdır. Əgər "qaladan" bir daş düşsə, bu bütün qalanın məhvinə gətirib çıxaracaq.

Yəhudi ailəsinin başlıca simvolu "Şalom bayt"dır. Tərcümədə "evin əmin amanlığı" adlanan bu sənəd evlilik müqaviləsidir. Bu sənəd yəhudi ailələrində xoşbəxtlik və rifahın əsas təməl daşıdır. Həm kişi, həm qadın başa düşür ki, ailədə xoş abu-hava üçün başlıca şərt qarşılıqlı hörmət və sevgidir. Yəhudilərə görə, ailənin ailə olması üçün başlıca şərt göylərdə kəsilən nigahdır. Yəhudilər nigah mərasiminə xüsusi hörmətlə yanaşırlar. Onlar üçün ev hər yerdən daha doğma yerdir.

Rabbi Yosef "şalom bayt"ın əsas sirlərini belə izah edirdi: "Hər bir ana qızına ailənin əsas təməli olan "şalom bayt"ı öyrətməlidir. "Şalom bayt"da əsas məsələ qadınla kişinin istəklərinin və hüquqlarının bərabərliyidir. Əgər qadın ərinin qulluqçusu olsa, kişi qadının qulu olacaq və ona hörmət edəcək. Yox əgər qadın ərinə hakimlik etmək istəsə, kişi də özünü ağa kimi aparıb qadını qulu kimi qəbul edəcək. Deməli, ailədə qarşılıqlı hörmət və qarşılıqlı bərabər hüquqların olması vacibdir".

Xoşbəxt yəhudi ailəsinin digər sirri isə "taharat mişpaxa"dır ("ailənin təmizliyi"). Bildiyimiz kimi Mişnada "Toharot" bölməsində təmizliklə bağlı qanunlara rast gəlinir. Ailə qurmuş cütlüklər gündəlik həyatlarında bu bölməyə daxil olan bütün traktatlara riayət edirlər: Keylim (qabların təmizliyi ilə bağlı hökmlər), Oalim (evlərin murdardan təmizlənməsi ilə bağlı hökmlər), Neqaim (xəstəliklərdən təmizlənmə ilə bağlı hökmlər), Para (murdarlanmadan xilas olmaq üçün istifadə olunan qırmızı bibərlə bağlı hökmlər), Taarot (insanların və əşyaların təmizlənməsi ilə bağlı hökmlər), Mikvaot (su yerlərinin təmizlənməsi ilə bağlı hökmlər), Nida (qadınların heyzdən təmizlənməsi ilə bağlı hökmlər), Zavim (insan orqanlarının təmizlənməsi ilə bağlı hökmlər), Tevul-yom (mikva suyu ilə insanların təmizlənməsi ilə bağlı hökmlər), Yadayim (əllərin təmizlənməsi ilə bağlı hökmlər) və Uksin (bitkilərin murdardan təmizlənməsi ilə bağlı hökmlər).

Yəhudi ailəsində valideynin xeyir-duası da olduqca vacibdir. Bu, daha çox ailə quran gənclərin seçimində valideynin razılığının olub olmamasında özünü göstərir. Yəhudi ənənəsinə görə hər bir övlad ailə qurarkən valideynlərinin razılığını və xeyir-duasını almalıdır. Bu haqda Tövratda da rəvayətə rast gəlinir: "Bir gün İbrahim evindəki baş qulluqçunu şaöırıb ona deyir: əlini bura qoyaraq yerin və göyün Tanrısına and iç ki, mən öləndən sonra mənim övladlarım Kənaan qızları ilə evlənmək istəsələr, buna izn verməyəcəksən. İsaq kənaanlı qız istəsə, buna mane olacaqsan". Sonradan İsaqın oğlu Yaqub da öz övladı Yusifi yanına çağıraraq deyir: "Sən də mənə söz ver ki, baban kimi (İsaq) mənim sözümə qulaq asacaqsan və kənaanlı qızla evlənməyəcəksən. Qalx ayağa, Mesopotamiyaya – ananın atasının evinə (Vafilə) get və orada dayın Lavanın qızlarından biri ilə evlən. (Varlıq, 28:1-2)".

Yəhudi ailəsində uşaqların sayında məhdudiyyət yoxdur. Əhdi-Ətiqdə bu haqda məlumat yoxdur. Əksinə, "Varlıq" kitabında "Çoxalın və artın" deyə hökmə rast gəlinir. Yalnız "Varlıq" kitabında 38-ci fəsildə Yehudanın övladlarının sayında qadağa ilə bağlı fikri görmək olar. Hillel hesab edirdi ki, hər bir yəhudi ailəsində ən azı iki övlad – bir qız, bir oğlan lazımdır. Lakin Şammay 2 oğulun olmasını vacib hesab edirdi. Talmudda hamiləliyi əngəlləyən dərmanlardan və onların düzgün zamanından da danışılır. Lakin Hallaxada bu hallar günah hesab edilir və onlardan istifadə də qəti şəkildə qadağan edilir.

Yəhudi ailəsində əsas sütun kişi hesab olunur. İstər yəhudi şifahi xalq yaracılığı, istərdə də Tövrat və Talmudda ailədə kişinin rolu yüksək qiymətləndirilir. Yəhudi atalar sözündə deyilir: "Bir ata 10 oğulu saxlaya bilər, amma 10 oğul bir ataya bərabər deyil (bir ata etmir)". Tövratda da kişi ailənin başçısı və mülkün yiyəsi kimi təqdim olunur. O, ailənin bütün üzvləri üzərində hakim mövqeyə sahibdir. Əhdi-Ətiqdə həm də, hansı hallarda atanın bu hakimliyi övladlarına verməsindən də danışılır (Varlıq, 50:16, "Yeremiyanının kitabı", 35:6-10).

Müxtəlif dövrlərdə dünyanın bir çox ölkələrində yaşayan yəhudilər yaşadıqları dövlətin yerli sakinləri ilə evlənirdilər. Yəhudi kişilər digərlərindən bir

sıra xüsusiyyətləri ilə fərqlənirdilər: onlar içki içmir, siqaret çəkmir, hər yolla evlərinə qazanc gətirirdilər. Buna görə də qızların valideynləri övladlarının yəhudi ilə evlənməsinə könüldən razı olurdular. Savadlı olmaları isə yəhudi kişilərinin şansını birə beş artırırdı. Bu cür ailələr daha möhkəm olur, boşanma halları demək olar ki, müşahidə olunmurdu. Çünki Talmuda görəndə ailələr dağılanda (boşanma baş verəndə) hətta "məbəddəki qurbanlar belə ağlayırlar".

Yəhudi ailələrində övladların da bir-biri ilə münasibəti vacib məsələlərdən biridir. Belə ki, bacı və qardaşlar bir-birinə daim sevgi və qayğı ilə yanaşmalıdırlar. Biz bunu Yusiflə bağlı rəvayətlərdə də görə bilirik. Qardaşları tərəfindən aldadılaraq qul kimi satılsa da, Yusif sonda qardaşlarını bağışlayır. Bibliyada "qardaş" ("ax") sözü təkcə doğma qardaşları deyil, əmi və dayıoğlanlarını da bildirirdi. Tövratdakı qanunlara görə qardaş qardaşının qanını yerdə qoymamalı ("Samuelin I kitabı", 3:27), qardaşını əsirlikdən xilas etməli (Levilər, 25:48), onu daim qorumalıdır (Hesab, 35:19-28, "Samuelin II kitabı", 14:11).

***Qadın və onun yəhudi ailəsində yeri.*** Ənənəvi yəhudi ailəsinin əsasında qarşılıqlı hörmət dayanır. İstər Əhdi-Ətiq, istərsə də Talmud da yəhudi ailəsinin əsas qanunlarına aid çoxsaylı məlumata rast gəlinir. Talmudda deyilir ki, kişi qadınını özünü sevdiyi kimi sevməlidir. "Kişi qədərindən az yeməli və içməli, ailəsini düşünməlidir. O, dinə uyğun geyinməli, arvadına və uşaqlarına qədərindən çox hörmət etməlidir. O, bütün gücü ilə çalışıb arvad və uşaqlarının hər bir ehtiyacını ödəməlidir (hətta özü ehtiyac içində olsa belə). "Kişi hər işdə arvadı ilə məsləhətləşməlidir (Bava-Metsia, 59)". "Qadın səbrli və mülayim olmalıdır (Ba-midbar, 89)". Hətta rəvayət olunur ki, bir gün tələbələri Rabbi Akivadan soruşurlar: "Ən varlı adam kimdir?". "Arvadı mülayim və nəzakətli olan kəs" deyə Rabbi Akiva onlara cavab verir (Şabat, 256).

Yəhudi ailəsində qadına böyük hörmətlə yanaşırlar. Ramban "İqeret ha-kodeş" əsərində yazırdı ki, "qadın hər bir işdə kişinin dayağıdır. Onların fikri də özləri kimi vəhdətdədir. Onların xupanın altında birgə dayanırlar, məhz xupa onlara davamlı və xoşbəxt ailə vəd edir".

Əhdi-Ətiqdə qadının ailədki yerindən danışılır. Ana, əgər ailədə yeganə və yaxud böyük arvad idisə, ona çox hörmət edirdilər. Ananın necə nüfuza sahib olmasını biz "Varlıq" kitabında "Samsonun hekayəsində" Samsonun anası Sarranın timsalında görə bilərik. Ərinin vəfatından sonra o, oğulları olsa belə, faktiki olaraq ailənin başçısına çevrilmişdi.

Yəhudilərə görə əgər ailədə yaxşı münasibət varsa, qadınla kişinin maraqları arasında balans mövcuddur. Bu haqda Hillellə Rambamın maraqlı rəvayəti vardır. Rəvayətə görə bir gün Hillel soruşur: "Mən özüm üçün deyiləmsə, o zaman kim mənim üçün? Və əgər mən özüm üçünəmsə, o zaman mən kiməm? Və əgər indi deyilsə, o zaman nə vaxt?". Bunu eşidən Rambam onun suallarına ardıcıllıqla cavab verir: "Arvadın sənin üçün. Sən ailənsən. İndi. Bil ki, əgər düzgün yolla həyata keçirilibsə nigah müqəddəs və pakdır".

Qadının yəhudi ailəsində rolundan danışarkən belə bir rəvayətə diqqət yetirək: Nəql olunur ki, bir gün Rabbi Moşe Pantelyatın arvadının ayağı büdrəyir. Ağrıların şiddətləndiyini görən rabbi Moşe onu həkimə gətirir. Həkim "Nə baş verib?" soruşduqda, rabbi Moşe cavab verir: "Bizim ayağımız ağrıyır". Rəvayətdən də görünür ki, yəhudilərə görə qadının ağrısı kişinin ağrısıdır.

Rabbi Yosi nəql edir: "Mən arvadıma "mənim evim", evimə isə "mənim arvadım" deyirəm (Qitin, 52)". "Ərin necə olmasını bilmək istəyirsənsə, arvadına bax". Bu ifadələr yəhudilərin həyatında qadının necə vacib rola malik olmasının bariz nümunəsidir.

***Yəhudi ailəsində övlad və onun tərbiyəsinin yeri***. Yəhudi qanunlarına görə atanın övlad qarşısında bir sıra hüquq və vəzifələri vardır. Hallaxaya görə, oğulla müqayisədə ata qızının üzərində daha çox hakimliyə malikdir: o, qızını müəyyən pul müqabilində ərə verə bilər. Həmçinin ata qızını ərə verərkən onu bütün lazimi şeylərlə (paltar, əşya) təmin etməlidir. Ata oğlunu sünnət etdirməli, ona Tövrat və sənət öyrətməlidir

Uşaq doğularkən atanın soyadını qəbul edir. Ad uşağa valideynlər tərəfindən verilir. Əgər ad seçimində valideynlər razılığa gələ bilmirlərsə, o zaman, uşağa iki

ad verilə bilər: hər bir valideyn uşağa bəyəndiyi adı verir. Ərə getməyən qız övlad dünyaya gətirərsə övladına öz soyadını verməlidir. Lakin Hallaxa görə bu uşaq heç vaxt "qanundankənar uşaq" hesab olunmur. Yəhudilər ana bətnində olan uşağın belə müəyyən hüquqlara malik olduğuna inanırlar.

X.S.Redklif "Yəhudi valideyn olmaq nə deməkdir?" məqaləsində yəhudi valideyninin əsas vəzifələrindən yazır. Müəllif qeyd edir ki, yəhudi valideynin ilk vəzifəsi övladına düzgün tərbiyə verməkdir. O, məqaləsinə yəhudi valideynin övladı üçün etdiyi duanı da daxil edib: "Uca Allah, övladım daim Sənin nəzərində olsun. Onun ürəyini Sənə olan sevgi ilə doldur. Onun ağlını Sənə olan qorxu ilə tərbiyələndir. Ona elə bir sevgi ver ki, daim Tövrat və Səni öyrənmək arzusu onun qəlbində kök atsın. Onun yolundan arzularına mane olacaq bütün çətinlikləri yox et və elə et ki, bu yoldakı hər şey onun yolunu Sənin Müqəddəs Tövrata yaxınlaşdırır".

Yəhudi ailəsində hesab edilər ki, bütün övladlar evə aid bütün işlərdə ata və ana ilə məsləhətləşməli, onları rəhbər qəbul etməlidir. Belə bir davranış böyüklərə hörmət düşüncəsinin formalaşmasına kömək edir.

Övladın tərbiyəsi məsələsi yəhudi ailəsində olduqca vacibdir. Tövratda da bu haqda məsləhət və qanunlara rast gəlinir. "Yolun əvvəlində övladını düzgün yola yönəlt, o, bu yoldan qocalanda belə çəkilməyəcək". "Və siz atalar – övladınıza təzyiq etməyin, amma onları Tövrat öyrənməyə məcbur edin". "Uşaq küçədə evdə eşitdiyini deyir (Sukka, 656)". Rabbi Yehuda deyirdi: "Övladına sənət və ya elm öyrətməyən kəs, ona oğurluq öyrətmiş olur. Gücünüz çatmayan şeyləri övladınıza vəd etməyin. Bu yolla siz ona yalanı öyrətmiş olursunuz".

Rabbi Yehuda ben Teyma da övlad tərbiyəsinin vacibliyindən yazırdı: "Övladınızı düzgün tərbiyə edin: onu pələng kimi cəsur, maral kimi cəld, qartal kimi iti və şir kimi əsalətli böyüdün".

Rabbi Şimşon Refael Qirş də ailənin möhkəm və intizamlı olmasında əsas rolun valideynlərə məxsus olduğunu bildirirdi. O, yazırdı ki, əgər sağlam ailə istəyirsinizsə, o zaman, övladlarınızı düzgün tərbiyə edin: "Gəncləri elə tərbiyə edin ki, o, ən kiçik şeylərdə belə xoşbəxtlik tapa bilsin; ən kiçik və ən böüyk şeyə eyni

dəyərlə yanaşsın. Qoy övladlarınız kiçik yaşlarından bilsinlər ki, bütün canlılar insanlar kimi sevilmək və sevmək üçün yaradılıblar. Heyvanları sevməyi öyrədin. Onlar da ağrı-acını hiss edə bilirlər. Valideyn, unutma ki, yaralı heyvana acımasızcasına yanaşan və ya baxan övlad, insanın da acılarına laqeyd yanaşacaq".

Yəhudi ailəsinin möhkəmliyində sevgi amili də aparıcıdır. Hətta Tövratda da bi haqda yazılıb: "Valideyn bilməlidir ki, övladın tərbiyəsində vacib məsələ budur: sol əl (yəni sərt nizam-intizam) rədd edir, sağ əl (yəni sevgi və rəhm) yaxınlaşdırır. Hər iki əl vacib olsa da, sağ əl daha vacibdir. Çünki sağ əl övlada hər şey verir. Unutmayin ki, övladınızın düzgün tərbiyə almasını istəyirsinizsə, onu sevin. Övladınız yalnız sevgi üzərində formalaşan nizam-intizamana tabe olacaq. Çünki övladınız başa düşəcək ki, bu nizam-intizam valideynlərinin ona qarşı olan sevgisindən irəli gəlir".

Yəhudi ailəsində övladın istək və arzularına, onun qorxu və həyəcanlarına da hörmətlə yanaşılır. Hər bir yəhudi valideyn başa düşür ki, övlada sərt davranmaqla, onun istəklərinə kəskin şəkildə "yox" deməklə övladı tərbiyələndirmək olmaz. Yəhudilərin hər şeyə hörmətlə yanaşmasını biz təkcə, ailə daxilində yox, onların adi günlük həyatında da görürür. Bunu daha yaxşı izah etmək üşün biz şabatda "xala" (çörək növü) misalını çəkə bilərik. Nəql olunur ki, bir gün bir nəfər rabbi Qerşomdan soruşur: "Şabatda iki xala çörəyinin üstünü niyə örtüklə örtürük?". Rrabbi Qerşom cavab verir: "Yəhudilər gündəlik yeməyə çörəklə başlayırlar, lakin şabatda ilk öncə şərab içirlər. Bu zaman yəhudilər "çörəyin xətrinə dəyməmək üçün" onun üstünü örtürlər ki, çörək birinci şərab içildiyinə görə yəhudilərdən inciməsin".

***Yəhudi cəmiyyətində qocalara münasibət.*** Digər dinlərdə olduğu kimi iudaizmdə də böyüklərə hörmət, kiçiklərə sevgi əsasdır. Yəhudi dini əldən-ayaqdan düşən qocalara qayğı göstərməyi tövsiyə etmişdir. Çünki yəhudi inancına görə yaşlıların sayəsində insanın ruzisi və ömrü artır və yenə yaşlılara görə Allah gənclərdən köməyini əsirgəmir.

Yəhudi inancında yaşlılıq və uzunömürlülük Allahın ən sevimli qullarına bəxş etdiyi lütf kimi qəbul edilir. Yəhudi tarixinə nəzər salsaq görərik ki, yəhudi xalqının

atası hesab olunan peyğəmbərlər uzun ömürlü olmaları ilə diqqət çəkirlər. Məsələn, İbrahim peyğəmbərin 175, İsaqın 180, Yaqubun 147, Musanın 120 il yaşadığı güman olunur. “Varlıq” kitabına görə (6:3) Allah insan ömrünü 120 il təyin edib. Buna görə də, yəhudilər bir-birinə uzun ömür arzulayanda “120 il yaşa!” deyirlər.

Yəhudi ailələrində qocalara hörmət ailə üzvləri arasında çox vacibdir. Onları adları ilə çağırmaq tərbiyəyə ziddir. Talmudda gənclərin yaşlılara münasibəti haqqında bir sıra fikirlərə rast gəlirik: “Bir gənc bir qocaya yaşlı olduğuna görə hörmət edərsə, Allah da o, yaşlananda ona hörmət edən insanlar yaradar”. “Kiçiklərə şəfqət etmək, böyüklərə dəyər vermək və hörmət göstərmək lazımdır”. Eyni zamanda. Əhdi-Ətiq qocalara hörmət etməyi tələb edir: “Yaşlının qarşısında ayağa dur və ona hörmət et və Allahdan qorx” (Levilər, 19:32). Müqəddəs kitabda qocalara qarşı etinasızlıq günah kimi, onlara qarşı acımasızlıq hədsiz qəddarlıq rəmzi kimi qəbul olunur. Talmuda görə, insan 60 yaşında qoca, 70 yaşında ahıl olur (Avot, 5:21). Talmudistlər qocalığı çətin və dəyərli dövr hesab edirdilər. Onlar düşünürdülər ki, dəyərli olan insanın qocalığı deyil, qocalığında hansı bilikdə olmasıdır. Lakin Maymonid hesab edirdi ki, hətta savadısz qocanın da qarşısında ayağa qalxmaq vacibdir (Yad, 6:9).

Hələ Bibliya dövründə yaşlılığı bəzi vəzifələrin yerinə yetirilməsində məhdudiyyət kimi görürüdülər. “Levilərin kitabı”nda yazılıb ki, insan yalnız 50 yaşına qədər levi ola bilər. Talmud ədəbiyyatında da Sinedriona üzv seçilərkən yaş məhdudiyyəti mövcud idi. Kabbala dövründə isə mistik təfəkkür sahibləri daha çox yaşlı insanlar olduğundan yaşlılığa münasibət dəyişir.

XVIII əsrin II yarısında yaşlılara qayğı göstərmək üçün bir sıra təşkilatlar yaradılır: 1796-cı ildə Hamburq yəhudiləri “Mişenet zekanim”, 1829-cu ildə Berlin yəhudiləri yaşlılar üçün ev və 1844-cu ildə Frankfurtda yaşayan yəhudilər qocalar evi aşırlar. XX əsrin əvvəllərində Avropada yəhudi icmalarının mövcud olduğu böyük şəhərlərdə “moşav zekanim” adlanan qocalar evləri var idi.

Yəhudi adət-ənənələrində böyük-kiçik münasibətləri yalnız ailə çərçivəsində məhdudlaşmır. Bu qayğı və hörmət cəmiyyətdə və dövlətdə də qorunub

saxlanır. Bu, yəhudi xalqının ən nəcib, ən gözəl xüsusiyyətlərindən biridir. İsrail dövləti də yaşlılara xüsusi qayğı göstərir. Hər bir yəhudi bu qayğını özünün müqəddəs və mənəvi borcu hesab edir.

Yəhudi inancına görə, valideynlərin öz ata və analarına hörmət etməsi uşaqlar üçün ən böyük tərbiyə dərsidir. Ana və ata valideynlərinə həmişə saygılı və şəfqətli davranarsa, uşaqlar da bunu vəzifə bilib valideynlərinə və digər yaşlılara hörmətlə yanaşmağa çalışar. Yəhudilər hesab edirlər ki, uşaqlar bu şüura uzun müddət böyüklərdən görməklə və təkrar etməklə yiyələnir. Uşaq dəfələrlə yaşlılara necə itaət və hörmət edildiyini görməlidir ki, onu qavraya bilsin. Yoxsa valideynlərin quru sözlərlə uşaqlara hörmət etməyi öyrətməsi olduqca çətin, bəlkə də, qeyri-mümkündür.

Qocalara sevgi balaca yəhudi uşaqlarına kiçik yaşlarından öyrədilir. Yəhudi hekayələrindən birində nəql olunur: "Bir qoca yəhudi qocalıb əldən düşmüşdü. Əlləri əsdiyindən yeməyi üstünə dağıdır, qabları əlindən salıb sındırır və döşəməni çirkləndirir. Evin gəlini buna əsəbləşir və hər gün ərinə uzun-uzun şikayətlər edirdi. Oğul bezərək atasına taxtadan qab-qacaq düzəldir. Bir gün gəlin uşağın taxtadan nəsə yonduğunu görür. Ondan soruşur: sən taxatadan nə düzəldirsən? Uşaq cavab verir: mən sizin qocalığınız üçün qab düzəldirəm".

Hal-hazırda İsraildə kişilər 65, qadınlar isə 60 yaşında təqaüdə çıxırlar. Bir sıra rayonlarda isə yaşlılar üçün "matnas" adlanan dərnəklər fəaliyyət göstərir.

## YƏHUDİLƏRİN DƏFN VƏ YAS ADƏTLƏRİ

Yəhudi xalqının özünə məxsus yas və dəfn adətləri mövcuddur. Yəhudi inancına görə hətta xəstənin öz istəyilə belə onun ölümünü sürətləndirmək olmaz. Hər bir kəs ölüm ayağında olan xəstənin yəhudi qanunlarına zidd olmayan (məsələn, kremasiya, bədəninin tibbi müayinələr üçün verilməsi istəyi və s.) istənilən arzusunu

reallaşdırmalıdır. Hətta xəstənin dəqiq ölüm saatı məlum olsa belə o, ölməyənə qədər heç bir dəfn hazırlığına (mirasın bölünməsi, qəbrin qazılması, tabutun alınması və s.) başlamaq olmaz. Yəhudilərə görə ölüm son nəfəsin dayanması ilə başlayır.

Ölüm baş verdikdən sonra ölü ilə nəzakətli davranmaq lazımdır. Ölünü görünən yerə qoymaq, ona toxunmaq və ölü olan otaqda siqaret çəkmək, içki içmək qəti qadağandır. Ölünün gözlərini və ağzını onun yaxını bağlayır. Onun baş tərəfində şamlar yandırılır. Şamların sayı hər bir icmada müxtəlif ola bilər. Ölünü otaqda tək qoymaq olmaz, ya ailə üzvlərindən biri, ya da "şomer" adlanan xüsusi biri yuma prosesinə qədər ölünün yanında olmalıdır. Bu zaman "Zəbur"dan "Tehilim" oxunur. Ölüm anında evdə olan qablarda su varsa, bu su dərhal boşaldılır, güzgü, şüşə, portret və şəkillərin ya üstü örtüklə örtülür, ya da onları divardan endirirlər. Ölüm anından ölünün ilinə qədər evdə "neşama lixt" adlanan şam və ya lampa yanmalıdır. Ailə üzvlərinin hamısı yas mərasiminin şərtlərinə əməl etməlidirlər. Lakin 13 yaşına çatmayan qız və oğlanlar bu qanunlardan azaddırlar. Eyni zamanda, intihar edən (dəlilik halında intihar istisna olmaqla) və 1 aydan az yaşayan körpələrin yasında bu qaydalara əməl olunmur. Ölüm baş verən gün saç kəsdirmək, üz qırxmaq, soyuq su ilə olsa belə yuyunmaq, bəzənmək, kosmetikadan istifadə etmək, sənətkarlıq və ticarətlə məşğul olmaq olmaz.

Yəhudi ailəsində bütün ailə üzvləri çalışırlar ki, ölünü hörmətlə dəfn etsinlər. Dəfn hazırlıqları zamanı yəhudi qanunlarına xüsusi riayət olunur:

- ✓ Ölünün bütün bədəni otaq temperaturuna malik minimum 20 litr su ilə yuyulur;
- ✓ Yuyulma zamanı prosesdə iştirak edənlər ölüyə hörmət rəmzi olaraq susmalıdırlar;
- ✓ Ölünün gözünə gil və ya bir çimdik torpaq qoyulur;
- ✓ Yuma mərasimi bitdikdən sonra ölüyə "tahrihim" adlanan geyimi geyindirirlər. Ənənəyə görə paltar ağ kətandan və sadə olmalı, düyün və cibsiz olmalıdır;
- ✓ Ölüyə ayaqqabı geyindirmək olmaz;

- ✓ Bir qayda olaraq, ölünü yəhudi yumalı və geyindirməlidir;
- ✓ Pak olunmuş ölünü tabuta qoyurlar. Tabut taxtadan olmalı və döşəməsinin qalınlığı 4 sm-dən artıq olmamalıdır;
- ✓ Ölünün üzərinə gül də daxil olmaqla heç nə qoymaq olmaz;
- ✓ Tabutu dərhal bağlayırlar. Yəhudi ənənəsinə görə ölünü digərləri görsün deyə ortalığa qoymaq olmaz. Bu, ölüyə qarşı sayqısızlıq və günahdır;
- ✓ Məbəddə xidmət edənlərin övladlarının, nəvələrinin ölü ilə eyni otaqda qalması qadağandır.

Yəhudilər heç vaxt ölünü şabat və ya bayram günləri dəfn etmirlər. Bu hal istisna olmaqla ölünün dəfnini ertələmək qadağandır. Məsələn, əgər rəhmətə gedən insanın övladları uzaqda olarsa, onların gəlişini gözləmək məqsədi ilə dəfni yubatmaq olmaz. Yəhudi inancına görə, dəfnin yubadılması ruh üçün əlavə əzabdır.

Ölünü evdən çıxardıqdan sonra “kria” (”cırma”) adlanan ayin icra olunur. Bu zaman ölünün yaxınları çəkdikləri acının böyüklüyünü göstərmək üçün paltarlarını cırır. Əgər ölən valideyndirsə, o zaman “kria” solda, digər hallarda isə sağ tərəfdə icra olunur. Əgər ölü intihar edibsə o zaman krianın edilməsi qəti qadağandır. Ayin icra olunarkən ailənin yaxınlardan biri uca səslə oxuyur: “Barux ata adonay eloheynu melex ha-olam dayan ha-emet”.

Yəhudilər qəbrin qazılmasına da xüsusi diqqət edirlər. Belə ki, qəbir qazılarkən kürək əldən-ələ verilmir, biri digərinə ötürəndə onu torpağın üzərinə qoyur, digəri onu götürür. Qəbir qazıldıqdan sonra “tsdaku” – kasıblara nəzir verilir. Yəhudi inancına görə qəbirın qazılması bitdikdən dərhal sonra qəbirstalığı tərk etmək lazımdır, bu zaman digər qəbirləri ziyarət etmək qadağandır. Qəbirstanlıqdan çıxdıqdan sonra qəbir qazan kişilər iki hissəyə ayrılırlar, ölünün yaxınları onların arasından keçərək qəbirstanlığa daxil olanda onlar xüsusi dua oxuyurlar: “Ha-makom yinaxem etxem be-tox şor aveyley Tsiyon biruşalayim”. Qəbirstanlıqdan çıxdıqdan sonra əlləri yumaq lazımdır, lakin bu zaman əlləri qurulamaq olmaz. Əlləri yumadan evə daxil olmaq qadağandır. Bəzi etnik qrupların dini inancına görə qəbirstanlıqdan çıxarkən bir az ot dərib onu çiyindın atmaq lazımdır.

Ölü baş verən ailə geniş trapeza təşkil etmir. Onlar evə başsağlılğına gələnlərə yumru çörək, bərk bişmiş qaynadılmış yumurta və qaynadılmış mərci və ya lobya verirlər. Bu zaman istifadə olunan ərzaqlar ölünün puluna alınmamalıdır. Trapeza zamanı ət xörəkləri yemək və şərab içmək olmaz. Trapezaya qədər ölü evində yemək və içmək qadağandır.

Yəhudi inancına görə yas dövrü 3 hissəyə bölünür:

1) ***Şiva*** – bu dövr yas mərasiminin əsas dövrüdür. Dəfn mərasimdən dərhal sonra başlayır və 7 gün davam edir. Şiva zamanı yas saxlayanlar evdə oturur, dünyadan təcrid olur və ancaq ölüyə yas saxlayırlar. Onlara hündür yerdə oturmaq, gələnləri salamlamaq, ütüləmək, çimmək, kosmetikadan istifadə etmək, musiqiyə qulaq asmaq, bəzək əşyalarından istifadə etmək, yeni paltar geyinmək qadağandır. İlk üç gün – "şloşet ymey bexi" ("3 ağlama günü) adlanır və bu zaman yaxınlar "onları təsəlli etmək üçün" yas saxlayanların evinə gəlirlər. Yəhudi inancına görə ölən şəxsin ruhu 7 gün evi tərk etmir. Talmudda nəql olunur ki, bu günlər ərzində ruh evlə qəbirstanlıq arasında gəzərək bədəi rahatlıq axtarır. Sonuncu – yeddinci gün qəbir üstə gedilir və qəbirin üstünə daş qoymaq lazımdır. Əgər yeddinci gün şabat və ya bayrama təsadüf edərsə bu proses növbət günə ertələnə bilər.
2) ***Şloşim*** – şiva bitdikdən sonra başlayır və 30 gün davam edir. Yəhudi mistik ənənəsinə görə şloşim zamanı ruh tamamilə o biri dünyaya keçir və "o biri dünyanın paltarlarını geyinir". Şloşim zamanı saç kəsdirmək, üz qırxmaq, turist ekskursiyalarına getmək, sinaqoqda ön sırada oturmaq qadağandır.
3) ***Şana*** – 11 ay davam edən bu mərhələyə yalnız ana və ya ata öldükdə əməl olunur. Bir il ərzində övlad bütün qadağalara riayət etməlidirlər: şən və içki məclislərinə getmək, teatr, kinoya getmək, yeni ev və ya paltar almaq.

Yəhudilər ölümdən bir il sonra "yorstayt" adlanan mərasim icra edirlər. İdiş mənşəli "yor" (il) və "tsyat" (vaxt) sözlərinin birləşməsindən əmələ gələn bu söz ölümdən bir il keçdiyini göstərir. Yorstayt günü ölüyə hörmət rəmzi olaraq Tövrat və Mişna oxumaq lazımdır.

Qəbir daşının seçilməsi də yəhudi qanunlarına əsaslanır. Qəbir daşı mütləq bir il ərzində qoyulmalıdır. Dəb-dəbəli baş daşlarından istifadə etmək, daşən üzərində ölənin büstünü çəkmək, qəbirin yanında ağac əkmək olmaz.

Yəhudilər ildə 4 dəfə "izkor" adlanan xüsusi ayin icra edirlər: Pesax, Şşavuot, Yom-Kippur cə Şmina ha-tseret" bayramları zamanı ölən kəsin ruhuna müxtəlif dualar oxunur, onlar yaxınları tərəfindən yad edilirlər. Əgər bu prosesi icra etmək mümkün deyilsə, o zaman müəyyən miqdarda pul nəzir verilir. Ata-anası sağ olanlar "izkor" ayini zamanı otağı tərk etməlidirlər.

Yəhudilərin qəbir ziyarətləri də özünə məxsusdur. Belə ki, onlar qəbirə gül və ya çiçək dəstələri qoymurlar. Yəhudi inancına görə qəbir üstünə qoyulan gül atəşpərəstlik rəmzidir. Qəbri ziyarət edərkən sol əl baş daşının üzərinə qoyulur. Hər ziyarətdə yalnız bir qəbiri ziyarət etmək olar. Şabat və bu bayramlarda qəbirstanlığa getmək olmaz: Purim, Pesax şeni, Sivan ayında, Tisha be-Av günü, Yom Kippur, Xanuka, Tu-bi şvat günü, Purim katan və Roş xodeş.

## YƏHUDİLƏRİN ELÇİLİK, NİŞAN VƏ TOY ADƏTLƏRİ

Tarixçilər və etnoqrafların keçən əsrdə ən çox diqqətini çəkən mövzulardan biri məhz yəhudilərin evlilik adətləridir. Bəzi tədqaiqatçılara görə yəhudilərin evlilik ənənələri onların folkloruna təsir etmişdir. Buna görə də bu məsələ həm də ədəbiyyatşünaslar tərəfindən də maraq obyektində olmuşdur.

Evlilik mərhələlərində yəhudi xalqının dini baxışlarını xarakterizə edən bir sıra qədim adət-ənənələrə rast gəlmək olar. Yəhudilərdə bir qayda olaraq qızın razı olub-olmaması əsas götürülmür. Lakin bu məsələ mübahisəlidir, mənbələrdə bu haqda bir-birinə qarşı olan müxtəlif fikirlərə rast gəlinir. Məsələn, Anisimov yəhudilərin evlilik ənənələri haqqında yazırdı: "Yəhudi cavan oğlan cavan dağ yəhudi qızını gördükdə və ona vurulduqda qızın daxili aləmini, xasiyyətini, maraqlarını bilmədən onunla evlənmək qərarına gələrsə dostları vasitəsilə atasına xəbər göndərir. Yəhudilərdə formalaşan çoxəsrlik adətə görə oğlan atası ilə birbaşa

danışa bilməz. Qızların fikri isə heç soruşulmur. Oğlanın atası elçiliyə ("şadxan") ya özü gedir, ya da yaxın qohumlarını göndərir. Qız atası isə qızı ilə danışacağını desə də, bu yalnız formal xarater daşıyır. Belə ki, istənilən qız gələcək həyat yoldaşını tanımadan "Sizin (ata və qardaşlarının) dediyiniz hər şeyə razıyam" cavabını verməlidir. Yəhudi adət-ənənəsinə görə bu, "əxlaq norması"dır. Qız anaları da evlilik məsələlərində söz haqqına sahib deyil. Beləliklə də, evlilik razılaşması hər iki tərəfin kişi nümayəndələri arasında aparılır. Yəhudilər oğlanları ilə ona görə danışırlar, gələcəkdə baş verə biləcək boşanmanın qarşısını alsınlar. Çünki gələcəkdə oğlan "Mən evlənmək istəmirdim, siz təkid etdiniz" deyə bilər. Maraqlısı odur ki, elçilik mərasimlərinin çoxu hələ evlənəcək tərəflər uşaq ikən içki məclislərində və ya bu və ya digər bayramlarda baş verir. Belə ki, hər iki tərəfin ailə başçısı bir-birinə "qohumluq vədi" verərək əllərini sıxırlar. Buna görə də müxtəlif şəhər və bölgələrdə yaşayan evlənəcək cütlüklər toy gününə qədər bir-birinin üzünü görmürlər".

Lakin digər mənbələrdə başqa məlumatlara da rast gəlinir. Bu məlumatlarda evlənəcək qızın qərarının vacib olması yazılır: "Yəhudilərdə elçilik həm kiçik, həm də böyük yaşlarda aparıla bilər. Əgər elçi gəlinən qızın yaşı azdırsa onun yerinə ata və qardaşları cavab verir, yox əgər qız yetkinlik yaşındadırsa o zaman cavabı özü verir və hətta üzüyü də özü alır".

Yəhudilərin evlilik ənənələri iki yerə ayrılır:

1. Ənənəvi evlilik ənənələri. Ənənəvi evlilik ənənələri XX əsrin əvvəllərinə qədər yəhudilər arasında hakim olmuşdur. Sonradan yəhudilərin Avropaya inteqrasiyası və müasir dünyada baş verən yeniliklər bu ənənələrin yeniləri ilə əvəzlənməsinə səbəb oldu. Məsələn, XX əsrin əvvəllərinə qədər yəhudilərdə qız evinə toy hədiyyəsi kimi müxtəlif parçalar aparılırdısa, sonradan geyim əşyaları aparmaq adət halını aldı.
2. Müasir evlilik ənənələri. Bu ənənələrin əsasında ənənəvi evlilik ənənələri dayanır. Yəhudilər müasir ənənələri qəbul etsələr də, toylarda

keçirilən ayinlər, dualar qədim dövrlərdə olduğu kimi qorunub saxlanılmışdır. Deməli, yəhudilərin elçilik, nişan və toy adətləri də Müqəddəs kitablarla tənzimlənir.

Yəhudilərə görə adam arvadını özünü sevdiyi qədər sevməlidir və arvadını özünü şərəfləndiyindən daha çox şərəfləndirməlidir. Yəhudilərin inancında arvadını şərəfləndirən adamın varlanacağını bildirilir. Ərin həyatda başına gələn dünyəvi hadisələri arvadıyla paylaşması xoşagələn əməldir. Məcburi eşq yəhudilərdə xoş qarşılanmır. Yəhudilər ərin ailə idarəsini həmişə əlinə almasını və ailə içi şiddətin tətbiq olunmasını qınayırlar. İnanca görə Tanrı qadının göz yaşlarını sayar. Qədim zamanlardan gələn inanca görə saf və sevgi dolu bir evdə Allahın varlığı mövcuddur. Evlilik öhdəlikləri və hüquqları, ən nəhayət əhd əsas götürülərək yaradılmışdır. Yəhudilərə görə bu hüquq və öhdəliklər tarix boyunca Allah tərəfindən yenilənmiş və genişləndirilmişdir. Ənənəvi olaraq ərin vəzifəsi yoldaşının ehtiyaclarını tədarük etməkdir. Əgər qadın ərinə özü üçün yemək tədarük etmə zəruriliyindən imtina etsə gəlirini əriylə paylaşmaq məcburiyyətində deyil

Yəhudilərin evlilik prosesi aşağıdakılar mərhələrdən ibarətdir:

1) ***“Şiduxin”*** – sözlənmə və ya “hə alma” mərasimidir. Yəhudilərin evlilik qanunlarına görə sözlənmə bir qadın ilə kişinin gələcək bir tarixdə evlənəcəklərini və şərtləri müəyyən edən bir razılaşmadır. Sözlənmə, evlənəcək iki adam arasında, onların valideynləri və ya onların adına bir qohum tərəfindən edilə bilər. Sözlənmə, “şərtlər sənədi”  mənasını verən “ştar teanim” sənədiylə rəsmiləşdirilir və hər iki tərəfə əvvəlcədən oxunur. Sözlənmə zamanı “başlıq pulu”nun da məbləği müəyyənləşdirilir. Bu pul oğlan evi tərəfindən qız evinə ödənilən puldur. Oxumadan sonra gəlin ilə kürəkənin anaları qab qırarlar. Bu gün sözlənmə hərəkəti, toydan əvvəl bir mərasim ilə edilə bildiyi kimi toy günü də edilə bilər; daha müasir yəhudi ailələrində bu hərəkəti etməyənlər da mövcuddur.
2) ***Yerusin*** – nişan mərasimidir**.** Bu zaman tərəflər bir-birinə üzük təqdim edir. Nişan mərasiminin keçirilməsi ailənin maddi durumundan asılıdır.

Bəzi ailələrdə bu mərasim təm-təraqla, bəzilərində isə olduqca sıradan keçirilir. Yəhudi ənənəsinə görə yerusin, kürəkənin gəlinə bir şey uzatması ilə reallaşar; bu şeyin üzük kimi qiymətli bir şey ola biləcəyi kimi gəlinin kürəkənlə nişanlandığını ifadə edən bir sənəd də ola bilər. Bu hərəkətin etibarlı ola bilməsi üçün qohum olmayan iki kişi şahidin qarşısında reallaşması lazımdır. Yerusindən sonra zina qanunları qüvvəyə minir və dini boşanma reallaşmadan nişan pozula bilməz. Yəhudi ənənəsinə görə nişanlanan cütlüklər hər həftə (hər Şabat) bir-birinə hədiyyələr göndərməlidirlər. Hədiyyələr müxtəlif meyvə və şənbə şirnilərindən ibarətdir. Qız mütləq oğlan evində, oğlan isə qız evində hazırlanan təamların dadına baxmalıdır. Bundan başqa oğlan qıza qızıl-zinət əşyaları, geyim, ətriyyat, qız isə dini ayinlərin icrasında istifadə olunan müxtəlif geyimlər göndərir. Hədiyyələri gətirənlərə müxtəlif hədiyyələr də verilir. Yəhudilərə görə nişanlı olduqları müddətdə əgər nişanlı qız oğlanı və oğlan evindən kimisə görərsə dərhal yerə oturmalı və üzünü örpəklə örtməlidir. Oğlan isə qız evindən kimisə görərsə dərhal uzaqlaşmalıdır.

3) ***Nisuyin*** –evlilik və ya toy mərasimidir. Yerusin, tərəflərin statusunu, nissuyin isə status dəyişikliyindəki qanuni sanksiyaları müəyyən edir. Güman olunur ki, lap qədim zamanlarda yəhudilərdə bu iki mərasim bir il ara ilə edilirdi; toy reallaşana qədər gəlin valideynlərin evində qalmalı idi və gəlinin qaldığı otaq kürəkən tərəfindən hazırlanırdı. Sonradan isə bu iki mərasim bir yerdə xalqa açıq olaraq həyata keçirilirdi. Nisuyindən sonra cütlük birlikdə yaşaya bilər.

Nişandan sonra dindar ailələrdə qız evi cehiz hazırlamağa başlayır. Oğlan evi isə öz növbəsində qızın gələcəyi evin təmiri və qız evinə aparılacaq hədiyyələrlə məşğul olurlar. Bundan başqa ailəyə yaxın qohumlar da qız evinə aparılacaq hədiyyələri oğlan evinə gətirirlər.

Yəhudilərdə toya hazırlıq xüsusi təmtaraqla keçirilir. Toya bir ay qalmış oğlanın atası iki nəfər şahidlə qız evinə gəlir və əvvəlləcədən təyin olunan pulu

onlara təqdim edir. Pulla qız atası gəlinə pal-paltar alır. Bəzən gətirilən puldanəlavə gəlinin atası əlavə pul də tələb edir. Qədimdə yəhudilərdə xublari müxtəlif ev heyvanları və ərzaqdan ibarət olsa da, müasir dövrdə balıq pulu yalnız puldan ibarətdir.

Toya az qalmış tərəflər arasında "şalom bayt" adlanan nigah müqaviləsi bağlanır. İbricə adlandırılan "evlilik razılaşması" adlandırlarn bu sənəd yəhudi ənənəsində dəyər verilən bir ünsürdür. Bu sənəddə həm də qadının istədiyi adamla evlənmə haqqı olduğu göstərilir. Bundan başqa "şalom bayt"da ərin arvadını yeməklə, geyimlə təmin etmə öhdəlikləri ətraflı izah olunur.

Yəhudilərdə iki toy keçirilir: qız evində və oğlan evində. Toylar arasında məsafə bir gün olur. Oğlan toyu günü səhər tezdən qızın cehizi oğlan evinə gətirilir, ravvin gələrək yeni əşyalara xeyir-dua verir. Toy karvanın başında gənc dayanır və karvana rəhbərlik edir.

Toy zamanı gəlin əllərini təmiz qabda yuyur. Cütlük ilk öncə sinaqoqa gedir, burada onlara xeyir duaları oxunduqdan sonra sinaqoq bütün qonaqlarla 3 dəfə dövr edilir. Yəhudi ənənəsinə görə sinaqoqda olarkən gəlinin üzü mütləq örtülü olmalıdır. Gəlinin üzü yalnız sinaqoqdan çıxdıqdan sonra açıla bilər.

Gəlinlə bəy sinaqoqadan çıxarkən onlara düyü, müxtəlif növ şirniyyatlar, konfetlər atılırdı. Gəlinin ayaqları altına dəmir parçaları atılır ki, ər evində qədəmləri sabit olsun. Sinaqoqdan çıxdıqdan sonra gəlin bəyin əlindən bal yeyir. Daha sonra cütlük Qüds Məbədinin təsvir olunduğu divar qarşısına gələrək bir-birinə söz verirlər. Bundan sonra toyun dini mərasimlərlə müşayət olunan hissəsi başlanır. 4 gənc əllərində "Davud ulduzu"nun təsvir olunduğu örtüklə Məbədin rəsmi qarşısında dayanır. Cütlük xupanın altına keçir.

Ravvin gəlir və ibri dilində dua edir: "Barux ata adonay Eloheynu melex ha-olam aşer kidşanu beyeşua ha-Masiyax or ha-olam ve-adon şabat". Bundan sonra bəy gəlinə deyir: "Harey at mekudeşet li be-tabaat zot ke-dat Moşe ve-Yisrael". Eyni sözləri gəlin də təkrar etdikdən sonra insanlar gəlinin ayaqları altına müxtəlif qab-

qacaqlar atır və gəlin onları sındırır. Yəhudilərin toyunda ən maraqlı cəhət gəlinin rəqsidir. Belə ki, adətə görə gəlin rəqs etməmiş qız evindən heç kim rəqsə durmur. Gəlin rəqs edərək öz qohumlarını rəqsə qaldırır, oynamağa duran hər bir kəs gəlinə pul verir. Sonradan toyun yeyib-içmək hissəsi başlayır. Bu mərasim 4-5, bəzənsə 8-10 gün davam edə bilər. Toyun nə qədər davam etməsi tərəflərin maddi durumundan asılıdır. Qonaqlar süfrəyə düzülən təamlardan yeyir, mahnılar oxuyur, şənlənirlər.

Sadalanan mərasimlərin böyük əksəriyyətinə yalnız dini və ortodoksal yəhudilər tərəfindən riayət olunur. Müasir dövrdə istər İsraildə, istərsə də ölkə hüdudlarından kənarda baş verən toylar dini qayda-qanundan uzaqdır. Gənclər bir-birini sevdikdən sonra bəzən toy etmədən birlikdə yaşamağa başlayırlar.

## DAĞ YƏHUDİLƏRİNİN ETNOQRAFİK TARİXİNƏ BAXIŞ

***Dağ yəhudiləri.*** Dağ yəhudiləri-yəhudilərin etnolinqvistik qrupudur. Dağ yəhudiləri başlıca olaraq Azərbaycan Respublikasının Bakı və Quba şəhərlərində, Dağıstan Respublikasının Maxaçkala şəhərində məskunlaşmışlar. Çeçenistanda hərbi əməliyyatların başlaması ərəfəsində bu yəhudilər başlıca olaraq Nalçik və Qroznıda məskunlaşmışlar.

Rəsmi mənbələrə görə, hal-hazırda dağ yəhudilərinin sayə 200.000 nəfərdən çoxdur. Onlarda 100-120.000 nəfər İsraildə, 15-30.000 nəfər Azərbaycanda, 30.000 nəfər Rusiyada, bir qismi isə ABŞ, Almaniyada və bir sıra Avropa dövlətlərində yaşayırlar.

Hal-hazırda dağ yəhudiləri bir neçə coğrafi qrupa bölünür:

- qaytağılar - Dağıstanın Qaytağı rayonunda yaşayırlar;
- dərbəndlilər - Dağıstanın Dərbənd rayonunda yaşayırlar;
- kubanlılar- Rusiyanın Krasnodar vilayətində yaşayırlar;
- qubalılar - Azərbaycanın Quba rayonu, əsasən Qırmızı Qəsəbədə yaşayırlar;
- şirvanlılar - XX əsrin əvvəllərinə qədər Azərbaycanın şimal-şərqi, Şamaxı rayonunun keçmiş Müci kəndi, habelə Bakıda yaşayırdılar;

- oğuzlular - Oğuz, Gəncə, İsmayıllı, Şamaxıda yaşayırlar.

***Dağ yəhudilərinin etnoqrafik tarixi.*** Dağ yəhudilərinin etnoqrafik tədqiqat tarixi XVIII əsrin sonu - XIX əsrin əvvəllərindən başlayır. Bu dövrə qədər dağ yəhudiləri haqqında məlumatlar bir o qədər də geniş yayılmamışdır. Qeyd etmək lazımdır ki, uzun müddət dağ yəhudiləri fars tayfalarının tərkibində öyrənilmişdir və onların tarixinə dair ayrıca əsərlər yazılmamışdır. Lakin sonradan Avropa və Qafqazda müxtəlif tarixi mənbələrin araşdırılması müəyyən etdi ki, dağ yəhudiləri yəhudi xalqının subetnik və etnolinqvistik qrupu olduğundan bu mövzu daha ətraflı və ayrıca tədqiq olunmalıdır..

Dağ yəhudilərinin elmi tədqiqatı uzun müddət sistematik şəkildə aparılmayıb. Tarixçi-etnoqraflar dağ yəhudilərininin məişətinin müəyyən bir sahəsini tədqiq etmişlər. Ayır-ayrı etnoqraf və tarixçilər tərəfindən aparılan araşdırmalar uzun müddət sistemləşdirilməmişdir. Bu və ya digər etnoqraf alim onun diqqətini çəkən məsələni araşdırmış, digər sahələrə isə diqqət yetirməmişdir. Buna görə də dağ yəhudilərinin etnoqrafik tarixinin müfəssəl və tam təsvirini vermək çətindir. Çünki tarixi mənbələrdə dağ yəhudilərinin tarixinə dair xronoloji və dəqiq məlumatlar olduqca azdır. Müxtəlif kitablardan və ya mənbələrdən əldə olunan məlumatları qarşılaşdırdıqda bəzən bir mənbədə qeyd olunan məlumatın digər mənbədəki məlumatla üst-üstə düşmədiyi müşahidə olunur; bəzən isə məlumat zəncirində müəyyən həlqənin çatışmadığını da hiss olunur.

Dağ yəhudilərinin etnoqrafik tədqiqatı onların Qafqaz ərazisinə nə zaman gəlmələrinin müəyyənləşdirilməsi ilə başlamışdır. Bu məsələ uzun müddət tədqiqatçılar arasında mübahisə mövzusu olmuşdur. Yəhudilərin Qafqazda yaşayan əcdadlarının mənşəyini, onların bu ərazilərə nə vaxt və necə gəlib çıxmalarını, uzun illər hansı dəyişikliklərə məruz qaldıqlarını araşdıran alimlər bir-birinə zidd olan nəticələrə gəlmişlər. Bir qisim alim Qafqaz dağlarında yaşayan dağ yəhudilərinin xəzərlərin əcdadları olduğunu deyir. Bu alimlər bu bağlılığı onların ortaq dinə tapınması ilə izah edirlər. Məlum olduğu kimi Xəzər xaqanlığının rəsmi dini iudaizm idi. Alimlərin digər qismi isə indiki dağ yəhudilərinin əcdadlarının adları qeyd

olunan ərazilərə gəlişini yəhudilərin Şimali İran və Bizans imperiyasının müxtəlif ərazilərindən Azərbaycana köçü ilə əlaqədar olaraq yarandığını iddia edirlər. Bu alimlər iddia edirlər ki, dağ yəhudiləri və tatlar çox qədimdən Qafqazda məskunlaşıblar. Onların ulu əcdadları bir zamanlar İranın cənub-qərb bölgələrində yaşayıb və orada orta-fars dilini mənimsəyiblər və onlar b.e.ə. VII-VI əsrlərdə Assuriya və Babil işğalçıları tərəfindən əsir götürülmüş yəhudilərdir. Eramızın V əsrindən etibarən isə bu tayfalar Şimala doğru hərəkət edərək Qafqazda məskunlaşmışlar.

***Dağ yəhudilərinin dili.*** Dağ yəhudilərinin etnik kökləri ilə yanaşı onların dili də uzun müddət etnolinqvistik tədqiqat mövzusuna xidmət etmişdir. Dağ yəhudilərinin etnik kökü onların dili ilə sıx şəkildə bağlıdır.

Dağ yəhudilərinin etnik köklərini araşdıran tədqiqatçılar onların dili ilə bağlı maraqlı məlumatlar əldə etmişlər. Dağ yəhudilərinin İran əraizisində yaşayan əcdadları fars dilinin cənub-qərbi ləhcəsində danışırdılar ki, bu da dağ yəhudilərinin dili ilə demək olar ki, eynidir. Bu fikir ibri dilinin araşdırıcısı Mixail Aqarunov tərəfindən də təsdiqlənib. Əvvəllər ibri və arami dillərində danışan İudey sakinləri b.e.ə.VI əsrin sonlarında öz torpaqlarından qovularaq "İkiçayarası"nda (Mesopotamiya) yaşamağa başlayıblar. Müasir İran və İraq ərazisində məskunlaşdıqları dövr ərzində onlar fars dilini mənimsəməklə yanaşı, öz tarixi dillərinin bəzi fonetik və leksik qanunlarını da qoruyub saxlayıblar. Bu da öz növbəsində dağ yəhudələrinin dilinin mənbəyinin ibri və ya arami dili olduğunu sübuta yetirir. Maraqlıdır ki, dağ yəhudiləri başqaları başa düşməsin deyə, öz aralarında hərdən "zuhun imromi" adlanan sirrli dildən də istifadə edirlər ki, həmin dil daha çox arami dilinə bənzəyir. Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, dağ yəhudilərinin əcdadları b.e.ə. VI əsrdə İudey ərazisində yaşamış, sonradan Mesopotomiya ərazisində yerləşdirilmiş tayfalar idi. VI əsrinin əvvəllərində isə onlar Şimali Azərbaycan və Dağıstan ərazilərinə köçürülüblər. Düzdür, alimləri düşündürən digər bir sual 1100 il İran torpaqlarında yaşamış yəhudilərin doğma ibri dilini unudub fars dilində danışmağa başladıqları halda, Azərbaycanda yaşadıqları

1500 il ərzində öz dillərini necə qoruyub saxlaya bilmələridir. Məsələ burasındadır ki, Şimal-Şərqi Qafqaz ərazisində təkcə yəhudilər deyil, məzdəkilər hərəkatını dəstəkləyən xeyli sakin fars dilinə yaxın dialektlərdə danışırdı və yəhudilər zaman ərzində bu sakinlərlə qaynayıb-qarışmışdılar. Bu amil onların fars dilini mənimsəmələrində böyük rol oynamışdır. Həqiqətən də, Xəzərin qərb sahillərində– Dərbənddən İranın cənub sərhədlərinə qədər olan ərazidə məskunlaşan əhalinin hamısı demək olar ki, farsdillidir.

Dağ yəhudilərinin dili “cuhuri” adlanır. Müasir dövrdə Azərbaycanın şimalında Quba şəhərindəki “Qırmızı Qəsəbə”də və Dağıstanın bir sıra şəhərlərində yaşayan dağ yəhudiləri məhz bu dildə danışırlar. Lakin güman olunur ki, cuhuri dilində danışan yəhudilərin ən böyük qismi İsraildə yaşayır.

Cuhuri Hind-Avropa dil ailəsinə aid olan İran dillərinin cənub-qərbi qoluna aiddir. Dağ yəhudilərinin dilində sami elementləri müşahidə olunur (ibri, arami və ərəb). Məsələn, ibri dilində olduğu kimi cuhuri dilində də “ayn” hərfi vardır. Müasir dövrdə bu dil “təhlükə altında olan dillər”dən biri hesab olunduğundan YUNESKO tərəfindən “Ölü dillər atlası”na daxil edilmişdir.

Cuhuri dilində sözlərin 2% qədim yəhudi və arami mənşəlidir. Bu sözlərdən gündəlik məişətdə istifadə olunmur. Bu sözlər daha çox dini mərasimlərlə bağlıdır və xüsusi günlərdə müxtəlif dini ayinlərin icrası zamanı istifadə olunur. Bundan başqa, nigah mərasimi ilə bağlı olan terminlər də qədim yəhudi dilindən mənimsənilmişdir. Eyni zamanda cuhuri dili sami dillərindən bir sıra xüsusiyyətləri ilə seçilir ki, bunlardan biri bu dildə sait hərflərin olmasıdır. Bildiyimiz kimi, sami dillərində sait hərflər sait səs kimi çıxış edir.

Dağ yəhudilərinin dili 2 əsas dialektə bölünür. Hər bir dialekt isə müəyyən yarımqruplara ayrılır. Dialekt zənginlinliyi coğrafi müxtəlifliklə izah olunur.

1) Şimal və ya qaytağı dialekti: çoxsaylı türk sözlərinin olması ilə seçilir ki, bu sözlər qumuq dilindən mənimsənilmişdir;

2) Cənub dialekti: dərbənd, quba və oğuz dialektlərinə bölünür. Sonuncu dialektdən hal-hazırda istifadə olunmur. Bu dialektlərdəki türk sözləri Azərbaycan dilindən mənimsənilmişdir.

***Dağ yəhudilərinin əlifbası.*** XX əsrin əvvəllərində dağ yəhudiləri yəhudi əlifbasından istifadə etməyə başladılar. Lakin onlar kvadrat yazıdan yox, Raşi yazısından istifadə edirdilər. Dağ yəhudiləri bunu "Bağdad yazısı" adlandırırlar. 1928-ci ildə kvadrat yazıya keçsələr də, bu çox çəkmir. 1920-ci illərin sonunda latın əlifbasına keçirlər. Belə ki, 1920-ci illərin sonunda Qafqaz xalqlarının dilini latın əlifbasına keçirmək kampaniyası başlayır. Bunun əsas səbəbi isə, yerli camaatı uzun illər ərzində istifadə olunan ərəb dilindən və ənənəvi müsəlman təhsilindən nisbətən ayıraraq dünyəvi təhsilə yönəltmək idi. Azərbaycanın şimalında yaşayan yəhudiləri də dini köklərindən dünyəviliyə meylləndirmək üçün onlardan da latın əlifbasına keçmək tələb olunur. Beləliklə də, 1929-cu ildə Nalçikdə qərara alınır ki, dağ yəhudilərini Avropa mədəniyyətinə yaxınlaşdırmaq və tat məktəblərində doğma dildə təhsili təmin etmək məqsədilə ibri əlifbasından latın əlifbasına keçirilsin. Məktəblərdəki təhsilin hansı dialektdə olması isə uzun sürən mübahisələrə səbəb olur. Sonda təhsilin Dərbənd dialektində olmasına qərar verilir. Lakin görkəmli filoloq və Naftali Tsvi Anisimov hesab edirdi ki, Dərbənd dialekti ilə yanaşı digər dialektlərdə də təhsil vacibdir. Onun təklifi rədd edilir və qərara alınır ki, "Dərbənd dialektində digər dialektlərlə ortaq sözlərin sayı daha çox olduğundan" təhsil məhz bu dialektdə olmalıdır. Digər mübahisəli məsələ isə, dağ yəhudilərinin ədəbi abidələrinin də latınlaşdırılması idi. Naftali Anisimov başda olmaqla bir çox yəhudilər buna etiraz etdikdən sonra qərara alındı ki, ədəbi abidələrin yəhudi yazısı saxlanılsın, lakin bütün hərəkələr idiş dilinə uyğun olaraq dəyişdirilsin. 1929-cu ildə Bakıda keçirilən "Orofoqrafiya məsələləri haqqında müşavirə"də Quba, Oğuz və Bakının dağ yəhudiləri iştirak edirdilər. Müşavirədə qərar alınır ki, bir sıra səsləri ifadə etmək üçün əlifbaya yeni hərflər əlavə olunsun. Buna görə də əlifbaya daxil olan hərflərin sayı 30-a çatdırılır. Lakin qısa müddət ərzində hakim dairələrin dəstəyi ilə tam latınlaşdırma həyata keçirilir. Bütün bunlara baxmayaraq, 60-cı illərin

sonuna qədər müxtəlif bölgələrdə yaşayan yəhudilər bir-birləri ilə məktublaşarkən ibri hərflərindən istifadə edirdilər.

1938-ci ildə isə kiril əlifbasına keçdilər. O dövrdə bir sıra filoloqlar iddia edirdilər ki, latın dili ilə müqayisədə kiril əlifbası dağ yəhudiləri üçün daha əlverişlidir. Çünki 33 hərfdən ibarət olan rus əlifbası Dağıstanda danışıq dili olan dialektlərin tələblərinə daha çox uyğun gəlir. 1940-cı ilin yanvar ayının 1-dən etibarən dağ yəhudiləri rəsmi şəkildə kiril əlifbasımdan istifadə etməyə başlayırlar

***Dağ yəhudilərinin adı.*** Dağ yəhudilərinin adı barədə müxtəlif fərziyyələr mövcuddur. Bu mövzu da digərləri qədər tədqiqatçılar tərəfindən ətraflı araşdırılmışdır. Tarixi mənbələrdə və əsərlərdə qeyd olunur ki, “dağ yəhudisi” termini ilk dəfə olaraq XIX əsrin II yarısında dağ yəhudilərin yaşadığı ərazilərin Rus imperiyası tərəfindən istilasından sonra yaranmışdır. Müasir İsrail etnoqrafı və tarixşünas alimi Amiram Barkat da bu fikri təsdiq edir. Qafqaz yəhudiləri üzrə bir sıra elmi əsərlərin müəllifi, israilli professor Mordexay Altşuler dağ yəhudiləri ilə İran və Buxara yəhudiləri arasında bağların mövcudluğundan danışarkən, onlara bu adın yaşadıqları ərazilərin nisbətən hündürdə olması ilə əlaqədar verildiyini bildirir.

***Dağ yəhudilərinin məişəti.*** Dağ yəhudilərinin məişəti də tədqiqatçılar tərəfindən araşdırılmışdır. XIX əsrin 40-50-ci illərində dağ yəhudilərinin bir qismi Erets-İsrailə köç etməyə başlayır. 1870-1880-ci illərdə Qüdsdən olan dini nümayəndələr Dağıstana baş çəkir, burda yəhudlərin vəziyyəti ilə maraqlanır, gördükləri haqqında müxtəlif əsərlər yazırdılar. 1860-70-ci illərdə Azərbaycan və Dağıstanda qalan dağ yəhudilərinin bir qismi isə kütləvi şəkildə şəhərlərə köçməyə başladı. Onlar əvvəllər məskunlaşmadığı Bakı, Temir-Xan-Şura, Nalçik, Qrozni, Petrovski-Port şəhərlərinə gələrək burada sənayeyə yatırımla məşğul olmağa başladılar.

Dağ yəhudilərinin ailə-məişəti ənənələrini tədqiq edən İ.Anisimov yazırdı ki, Rabbi Qerşomun qadağası dağ yəhudiləri tərəfindən qəbul edilmədiyindən poliqamiya, əsasən də iki və üçarvadlılıq Sovet dövrünə qədər dağ yəhudilərində

normal hal kimi qiymətləndirilirdi. Lakin sovet hakimiyyəti dağıldıqdan sonra yəhudi ailələrində bu kimi hallara çox nadir hallarda rast gəlinir.

Bundan başqa dağ yəhudilərinin geyimlərində də “qafqaz” ünsürünü görmək olar. Sovet hakimiyyəti dövründə Qubada yaşayan yəhudilər daha çox Azərbaycan geyimlərini xatırladan geyimlərə üstünlük verirdilər. Amma dini ayinlərin icrası, bayramlarda və müxtəlif ibadətlərin icrası zamanı ənənəvi geyimlərdən (talit, kipa) istifadə edirlər.

Dağ yəhudilərinin musiqisi də Qafqaz xalqlarının, xüsusilə Dağıstan xalqlarının musiqi və rəqslərinə yaxındır. İ.Çernov dağ yəhudilərinə həsr olunan əsərlərində yazırdı ki, dağ yəhudilərinin istər musiqi, istər geyim, istərsə də dini inanclarında “qafqaz” və “yəhudi” ünsürlərinin ahəngini görmək olar. Onları bu ahəngsiz düşünmək və tədqiq etmək mümkün deyildir.

***Dağ yəhudilərinin dini.*** İudaizm və icma bu günə qədər dağ yəhudilərinin həyatına öz dominant təsirini qoruyub saxlamışdır. Lakin XIX əsrin əvvəllərində dağ yəhudilərinin həyatına dinin təsiri nisbətən zəifləməyə başladı. Belə ki, məlum olduğu kimi, Sovet hakimiyyətində istənilən dini fəaliyyət, başlıca olaraq da yəhudilik hakim dairələr tərəfindən qəti şəkildə qadağan olunurdu. Sovet hakimiyyəti tutduğu ərazilərdə öz təbəələrini dini köklərindən qoparmağa çalışırdı və bununla da bu ərazilərdə öz hakimiyyətini möhkəmləndirmək istəyirdi. Dağ yəhudiləri də bu assimilyasiya planının tərkibinə daxil idi. Lakin assimilyasiya açıq-aşkar şəkildə həyata keçirilmirdi. Sovet hakim dairələri müxtəlif bəhanələrlə yəhudilərə qadağalar qoyurdular. Məlum olduğu kimi dağ yəhudiləri fars dilinin tat dialektində danışsalar da əlifbaları ibri əlifbası idi. İlk öncə Azərbaycanın şimalında yaşayan dağ yəhudilərini dini köklərindən dünyəviliyə meylləndirmək üçün onlardan latın əlifbasına keçmək tələb olunur. Qərara alınır ki, dağ yəhudilərini Avropa mədəniyyətinə yaxınlaşdırmaq və tat məktəblərində doğma dildə təhsili təmin etmək məqsədilə ibri əlifbasından latın əlifbasına keçirilsin. Bunda başlıca məqsəd dağ yəhudilərini öz dini köklərindən qoparmaq idi. Lakin aşkenaz yəhudiləri müqayisədə dağ yəhudiləri bütün qadağalara baxmayaraq öz dinlərinə sadiq qalırlar

və 60-cı illərin sonuna qədər müxtəlif bölgələrdə yaşayan dağ yəhudiləri bir-birləri ilə məktublaşarkən ibri hərflərindən istifadə edirdilər.

Dağ yəhudilərinin dini görüşlərini tədqiq edən görkəmli tarixçi-etnoqraf İ.Anisimov yazırdı: “Dağ yəhudləri ifrat fanatik olmaları ilə fərqlənirlər; bəzən bu fanatizm onları din və dini ayinlərə görə bu və ya digər dözülməz iztirablara dözməyə belə vadar edir”.

Dağ yəhudiləri dini cəmiyyət və icmanın təməl ağacı hesab edirlər. F.Şapiro yazırdı: “Hesab edirəm ki, dağ yəhudilərindən başqa dünyada ikinci bir icma yoxdur ki, din məişətin bütün sahələrinə bu qədər nüfuz etsin”.

Dağ yəhudilərində ibadət adətən gündə üç dəfə icra edilir; bayram və şənbə günləri əlavə dualar oxunur. İbadətin baş verməsi üçün minyan (kvorum) təşkil edən 13 yaşdan yuxarı azı on kişi tələb olunur. Qüds məbədi dövründən irəli gələn ənənəyə əsasən, dağ yəhudilərində də qadınlar üçün sinaqoqda yer ya kişilərin yerindən çəpərlə ayrılır, ya da qadınlar kənardakı yerləri tuturlar. Sinaqoqda başıaçıq olmaqlarına qadağa qoyulmuş kişilər səhər duası zamanı dördbucaq şəklindəki, uclarında 4 kist (sisit) olan yun materialdan ibarət xüsusi dua örtüyü (talit) taxırlar. Adi günlərdə səhər duası zamanı kişilər tfilin - içərisində Əhdi-Ətiqdən mətnlər qeyd edilmiş perqament hissəcikləri olan yun qutucuqları taxırlar. Uzun kəmərciklər vasitəsilə bu qutucuqlar dua edənlərin alnı və sol əlinə bağlanılır.

Sinaqoqa daxil olarkən və müəyyən duaların oxunuşu zamanı başı əymək qəbul edilib. Dualar ayaqüstə, yaxud oturaraq deyilir: bayram ibadətlərinin ayrı-ayrı məqamları istisna olmaqla, dua edənlərə üzüquylu düşmək və ya dizüstə çökməyə icazə verilmir. Dualar ibri dilində, bir sıra dualar isə qədim yəhudilərin gündəlik ünsiyyət dili olan arami dilində oxunur. Əsrlər boyu formalaşmış ibadət qaydası ardıcıllığı dini təqvimin bu və ya digər gününə müvafiq olan müəyyən duaların deyilişini nəzərdə tutur. İbadətə istənilən yəhudi-kişi rəhbərlik edə bilər. Böyük dağ yəhudi icmalarında bayram və şənbə günlərində duaların oxunması üçün xüsusi olaraq şəxsiyyətinə xüsusi hörmət bəslənən adam – “xazzan” təyin edilir, bəzən isə

onu kişi xoru müşayiət edir. Liturgiyanın (dua şəklində olan ədəbi nümunələr) bəzi hissələri sinaqoqda olanların hamısı tərəfindən oxunur.

İbadətin mərkəzi anı lülə şəklində bükülmüş kağızda Tövratın gətirilməsi və oxunuşudur. Tövrata əlavə olaraq dağ yəhudiləri Peyğəmbərlərin kitablarından parçalar oxuyurlar: bunun üçün xüsusi qiraətçi – "maftir" çağırılır. Tövratın oxunuşu fəxri vəzifə sayılır: qədimlərdə Tövratı icma üzvləri növbə ilə oxuyurdular, hal-hazırda isə icma üzvləri oxunuşa xüsusən təntənəli hallarda dəvət edilirlər. Lakin adətən dini kitabın oxunuşu üçün qədim yəhudi dilini mükəmməl bilən və reçitativ (mahnı arasında danışıq) məharətinə malik xüsusi qiraətçi dəvət edilir. Oxunuşdan sonra Tövrat təntənəli şəkildə sinaqoqda gəzdirilir və dindarlar böyük ehtiramla ona toxunurlar. İbadətin hazırlanmasına, dua kitablarının paylanmasına, Tövrat parçalarının hazırlanmasına nəzarət etmək vəzifəsi xüsusi işçinin – "şamaşa"nın üzərinə qoyulur.

Tarixi mənbələrdən məlumdur ki, dağ yəhudiləri digər Qafqaz icmaları imi bir zamanlar özlərinə xas olan və "nusax" adlanan xüsusi duaetmə ayini keçirirdilər. Lakin bu ayinin necə aparılması haqqında mənbələrdə heç bir məlumata rast gəlinmir. Güman olunur ki, dağ yəhudilərinin dini görüşləri həm sefard, həm də aşkenaz yəhudilərindən mənimsənilmişdir. İlkin dövrlərdə aşkenaz ayinlərinə üstünlük verən və daha çox aşkenaz liturgiyasına müraciət edən dağ yəhudiləri sonrada sefard ayinlərini qəbul etmişlər. İtaliyanın Livorno şəhərində tapılmış və XVII əsrə aid edilən kitabda dağ yəhudilərinin "nusax sfarad" adlı ayininin adı çəkilir. Lakin yəhudilərin sefard ənənəsinə keçməyinin dəqiqliklə XVII əsrə aid olduğunu demək mümkün deyil. Bəzi tədqiqatçılar bunu daha əvvəlki dövrlərə də aid edir. Tarixi mənbələrə əsaslansaq bu hadisənin XVI əsrin sonu-XVII əsrin əvvəllərində baş verdiyi söyləmək daha ağlabatandır. Məlumdur ki, Qubada mövcud olan sinaqoqlarından birindən tapılmış kitabda da bu hadisənin XVII əsrin əvvəllərində baş verdiyinə dair müəyyən işarələrə rast gəlinir.

Dağ yəhudilərinin dini görüşlərindəki ən mühüm xüsusiyyətlərdən biri onların yəhudi əlifbası və yazısına çox sadiq olmalarıdır. İstər Tövrat, istər Talmud,

istərsə də sidur və maxzorları onlar bir adla – “Turo” adlandırırlar. Onlar hesab edirlər ki, kitab həm dini-ədəbi, həm də mistik ünsürlərə malikdir. Bu haqda İ.Çerniy yazırdı: “Yəhudi təqvimi ilə 5594-cü ildə (miladi təqvimlə 1834-cü il) Araqa kəndinin müsəlman sakinlərini başda Mürsəlxan olmaqla Qaytağı kəndinin yerli camaatı ilə müharibəyə göndəriləndə Dəmir adlı müsəlman biri Qaytağı sinaqoqundan oğurladığı Tövratı özü ilə birgə Araqa kəndinə gətirdi. Bu müsəlman kitabı müxtəlif hissələrə ayıraraq onlardan özünə başmaq düzəltdi, digər hissələri isə müsəlmanlara payladı ki ehtiyaclarına uyğun şəkildə istifadə etsinlər. Bunu görən yəhudilər kədərlənir və qəzəblə “Niyə belə edirisniz? Axı o müqəddəs kitabdır, Allah sizi cəzalandıracaq” deyirdilər. Müsəlmanlar isə bu kağızları palçığa atır, tapdalayır və dağ yəhudilərini daha da qəzəbləndirirdilər. Əfsanəyə görə bir neçə gün sonra Dəmir bərk xəstələnərək “Yanıram, yanıram” deyə acılar içində qıvrılır. Bir həftə əzab çəkdikdən sonra Dəmir ölür. Bunu görən digər müsəlmanlar etdiklərindən peşman olaraq və qorxaraq Tövratın digər hissələrini palçıqdan yığaraq yəhudilərə qaytarırlar. Yəhudilər isə Allaha şükr duası edərək kitabın hissələrini yenidən sinaqoqa qaytarırlar”. Bu hekayə dağ yəhudilərinin Tövrata olan sevgisinə bariz nümunədir.

Dağ yəhudiləri kainatı yaradan tək bir Allaha və eyni zamanda hər bir yəhudi ilə Allah arasında xüsusi və fərdi bağlılığın olduğuna inanırlar. Onlar Allahın hər an yer üzündə fəal olduğuna və insanlara təsir etdiyinə inanırlar. Dağ yəhudiləri ilə Allah arasındakı münasibət dini əhdin üzərində qurulub. Bu əhd yalnız tarixi deyil, iudaizm inancına görə dağ yəhudiləri bu gün də etdikləri əməl və ya izlədikləri yola görə Allah tərəfindən mükafatlandırılırlar və ya cəzalandırılırlar. Buna əsasən hər bir yəhudi Allahın qanunlarına riayət etməli və müqəddəratı həyatının bütün sahələrində yaşamalıdır.

Dağ yəhudi icmasının dini və ictimai həyatının mərkəzi sinaqoqdur (“synagoge” yun. “toplantı” deməkdir). Vətənindən ayrı düşmüş və məbəd ayinlərini icra etməkdən məhrum olan sürgün edilmiş dağ yəhudiləri əsas ibadəti sinaqoqda icra edirlər.

Dağ yəhudilərinin dini icmalarının başında ravvinlər dayanır. Bir neçə dildə mükəmməl danışan ravvinlər XIX əsrə qədər yalnız dini təhsilə malik olsalar da, XIX əsrdən etibarən onlar həm də dünyəvi təhsil almağa başladırlar. Dağ yəhudilərində ravvinlər təkcə dini rəhbər deyil, onlar həm də icmanın mədəni və ictimai-siyasi rəhbərləri hesab olunurlar. Hal-hazırda da ravvinlər dağ yəhudi icmalarına başçılıq etsələr də, bu daha çox ruhani müəllimlik xarakteri daşıyır. Böyük icmalar ravvinə maaş ödəməklə onu daimi xidmətə dəvət edirlər. Ravvin müəllim, xətib funksiyalarını icra edir: o, gündəlik həyatda dini ehkamların tətbiqi ilə bağlı məsləhətlər verir. Ravvinlərin vəzifələrinə kəbinin kəsilməsi, yasın keçirilməsi. təntənəli dini mərasimlərin təşkili və s. daxildir. Bu zaman ravvin ruhani vəzifələrini icra etmir və onunla icmanın sıravi üzvü arasında kəskin fərqlər yoxdur. Sinaqoq ibadətində ravvin duaetmədə digər dindarlarla birgə iştirak edir, o, yalnız Əhdi-Ətiq və Tövratı daha dərindən bilməsi ilə seçilir. O, icmaya rəhbərliyi də həyata keçirmir: bu vəzifələri adətən könüllü olaraq icmanın üzvləri – dünyəvi şəxslər öz üzərinə götürür.

Dağ yəhudilərinin dini həyatının təsviri çətindir. Çünki tarixi mənbələrdə dağ yəhudilərinin dini ayinlərinin sistematik təsviri yoxdur. Müxtəlif kitablardan və ya mənbələrdən əldə olunan məlumatları qarşılaşdırdıqda bəzən bir mənbədə qeyd olunan məlumatın digər mənbədəki məlumatla üst-üstə düşmədiyi müşahidə olunur; bəzən isə məlumat zəncirində müəyyən həlqənin çatışmadığını hiss olunur. Məsələn, Qubanın Qırmızı Qəsəbəsində aparılan sorğuda yaşlı sakinlərdən biri iddia edirdi ki, Qubanın dağ yəhudiləri heç vaxt "talit katan" geyinməyiblər, çünki o, özü də bunun nə olduğunu bilmir və heç vaxt kiminsə geyindiyini görməyib. Lakin elə həmin söhbətdə digər yaşlı sakin isə Qubanın dağ yəhudilərinin "talit katan" geyindiyini deyir və uşaqlıqda geyindiyi taliti nümayiş etdirir. Bu cür hallar dağ yəhudilərinin dini inanclarını müəyyənləşdirməkdə çətinlik doğurur.

Dağ yəhudilərinin Hallaxa qanunlarına tabe olub-olmaması da tədqiqatçılar tərəfindən uzun müddət araşdırılmışdır. Bəzi tədqiqatçılar Hallaxaya əməl olunması söyləsələr də, digər bir qrup isə bunu kəskinlilə rədd edir. Məsələn, tədqiqatçıların

bir qismi yazır ki, ravvinlər Şabat günü sinaqoqa silahla gəlməyi qadağan edirdilər. Digər bir qrup isə, əksinə, dağ yəhudilərinin Müqəddəs şənbədə belə xəncərlərini bellərində gəzdirdiklərini yazırdı. Bəzi mənbələrdə dağ yəhudilərinin ravvin qaydalarına tabe olduğunu, digər mənbələrdə isə tabe olmadıqlarını qeyd olunur. Bu qadağalar əsasən Şabatla bağlı idi. Ravvinlər Şabat günü bütün dünya işlərini qadağan edərək yəhudilərin yalnız dua etmələrini buyursalar da, bir sıra dağ yəhudiləri Şabatda musiqi alətində belə ifa edirdilər.

Dağ yəhudilərinin dini inanclarını tarixi hadisələrlə çox bağlıdır. Dağ yəhudilərinin istər evlərinin içində, istərsə də evlərinin çöl hissəsində dini yəhudilik simvollarını görmək olar. Məsələn, Qırmızı Qəsəbədə olan bütün evlərin üzərində "Magen David"-"Davudun ulduzu"nu görmək olar. Dağ yəhudilərinin dini inancına görə, bu ulduz evi bəd nəzərdən, pis gözdən qoruyur.

Dağ yəhudilərinin dinində mistik ünsürlərə də rast gəlinir. Bu ünsürlər daha çox demonologiya ilə bağlıdır. Qədimdən bəri dağ yəhudiləri müsbət və mənfi ruhlara inanırlar. Belə ki, dağ yəhudilərinin dini inancına görə "Num Negir" adlı bir ruh vardır. Bu ruh daha çox qara qüvvələri təmsil edir. Güman olunur ki, bu inancın formalaşmasına slavyan xalqlarının və Qafqazda yaşayan və atəşpərəstliyə tapınan xalqların təsiri vardır. Anisimov bu haqda yazırdı: "Dağ yəhudiləri Allahın birliyinə inansalar da, Allah tərəfindən yaradılan ruhların mövcudluğunu da qəbul edirlər. Bu ruhlar bəzən müsbət, bəzənsə mənfi keyfiyyətlərə sahibdirlər. Onlar bu ruhları "Num Negir", "Ojdeyoe-Mar", "İlei-Novi", "Ser-Ovi", "Dedey Ol" adlandırırlar. Hər bir obraz müəyyən ruhu ifadə edir. Dağ yəhudiləri bu ruhları müxtəlif əcaib heyvanların simasında qəbul edirlər. Məsələn, "Ser Ovi" ağ rəngdədir və suda yaşayır. O, bir tərəfdən  gəncləri suya cəzb edərək onların canlarını alır, digər tərəfdən isə suya mundar bir şeyin atılmamasına nəzarət edir. Dağ yəhudiləri bu ruhların şərəfinə hətta bayramlar da təşkil edilər. Məsələn, onların qeyd etdikləri "Şev İdor" bayramı bitkilərin sahibi İdorun şərəfinə keçirilir. Bundan başqa payızda məhsuldarlıq ruhları hesab olunan "Qudur boy" və "Kesen boy"un şərəfinə də təmtaraqlı bayramlar təşkil olunur. "Şeqadu" adlanan şeytanın lənətlənməsi bayramı

dağ yəhudilərində xüsusilə məşhurdur. Rəvayətə görə, Şeqadu insanların beyinlərinə girərək onları düz yoldan çəkindirir”.

Dağ yəhudilərinin dini görüşlərinə xas olan cəhət onlarda “yəhudi” və “qafqaz” əlamətlərinin vəhdətdə olmasıdır. Bu cəhətlər ahəngdar sintezdə olduğundan yəhudi xalqının dini inanclarına hər iki əlaməti vəhdətdə nəzərdə almadan baxmaq mümkün deyil.

Dağ yəhudilərinin dini inancları şübhəsiz ki, iudaizm üzərində formalaşmışdır. Lakin uzun müddət Qafqazda yaşayan və Qafqaz xalqları ilə qaynayıb-qarışan dağ yəhudilərinin dini inanclarında islam və atəşpərəstlik ünsürlərini də müşahidə etmək olar. Məsələn, Qubanın dağ yəhudiləri Qafqaz xalqları kimi “Çillə”ləri qeyd edirdilər ki, bu da Qafqaz xalqlarının qədim inanclarından biri hesab olunur. Mənbələrdə qeyd olunur ki, bu, uzun müddət Qubanın ravvinləri ilə yerli dağ yəhudiləri arasında mübahisə mövzusu olmuşdur. Digər bir nümunə isə Pesax bayramından əvvəl tonqalın yandırılmasıdır. Daha çox atəşpərəstlik ənənəsi hesab olunan bu ənənə iudaizmdən deyil, Qafqaz xalqlarının adətlərindən qaynaqlanır. Adətə görə tonqal ancaq şam ağaclarından yandırılır. Tonqaldan hoppanarkən dağ yəhudiləri aşağıdakı dini mahnını ifa edirlər:

| | |
|---|---|
| Şam ağaci, bul-bul ağaci, | Şam ağacı, bül-büllərin ağacı, |
| İmişev şee Yemiyassali. | Bu gecə-yaz gecəsidir. |
| İvri koil, pasul moto! | Qoy yəhudilər daim yüksəkdə olsun, |
| düşmənləri bu ocaqda yansın! | |

Bildiyimiz kimi digər dinlərdə olduğu kimi iudaizmdə də dindarların gündəlik həyatını qurarkən nəzərə aldıqları həftəlik, aylıq və illik tsikllləri ayırmaq olar. Həftə tsiklli çərçivələrdə dağ yəhudiləri üçün də müqəddəs gün şənbədir (Şabat). Bu sevinc və istirahət günüdür və bu gün Tövratı öyrənmək, dincəlmək və bayram süfrəsi düzəltmək tapşırılır. Yəhudi şənbəsi ümumən qəbul edilmiş təqvimlə cümə gününün axşamı günəşin batması ilə başlayır; evin sahibəsi şamları yandırır və dualar söyləyir. Bütün ailə və dəvət edilmiş qonaqlar bayram süfrəsində iştirak edir

və bu zaman şərab və iki xüsusi bayram çörəyini (xalı) dadırlar. Adətən şənbə günü dağ yəhudiləri sinaqoqu ziyarət edirlər. Şənbə günü xüsusi dualar oxunan, xoş ətirlər ətrafa səpirlər və xüsusi şam yandırılan "Xavdal" mərasimi ilə bitir. Ortodoksal dağ yəhudiləri şənbə gününün riayət edilməsinə çox ciddi yanaşır, çoxsaylı dini göstərişləri pozmamağa çalışırlar; onlar işləmir, siqaret çəkmir, maşına minmir və s. İslahatçı dağ yəhudiləri isə qədim qadağaların çoxunu nəzərə almırlar.

***Dağ yəhudilərinin bayramları.*** Dağ yəhudilərinin dini görüşlərində yəhudi bayramlarının qeyd olunması xüsusi əhəmiyyət kəsb edir. Dağ yəhudiləri bayramları nisbətən fərqli alandırırlar. Məsələn, "Pesax"-"Nisonu", "Purim"-"Qomonu", "Şavuot"-"Asal-ta", "Roş ha-Şana"-"Aravo" adlandırılır. Bu bayramlar içərisində "Pesax" və "Purim" daha böyük nüfuza malikdir. Bu bayramlara dağ yəhudiləri iki, bəzənsə üç ay boyunca hazırlaşırlar. Bayramların təşkilində qadınlar xüsusilə fərqlənirlər. Onlar bütün ailə üzvləri üçün paltar tikməli, evləri təmizləməli, müxtəlif növ təamlar hazırlamalıdırlar. Bayramlarda səhər tezdən kişilər və oğlan uşaqları sinaqoqa gedir, qız və qadınlar isə evdə qalır və onların dönüşünə qədər süfrə açırlar. Dağ yəhudilərinin inancına görə, bayramlarda süfrədə ən azı 7 təam olmalıdır. Bu da Allahın dünyanı 7 günə yaratmasına işarə edir.

Dağ yəhudilərinin illik dini tsiklində dindarın həyatında özünəməxsus mərhələni təcəssüm edən bayramlar xüsusi yer tutur. Bu tsikl yeni ilin qeyd edilməsi (Roş-ha-Şana) ilə payızda başlayır. Talmuda əsasən, Roş-ha-Şana növbəti ilin Tanrı tərəfindən insanların əməllərinin qiymətləndirilməsinin məhşər günüdür. Aravo günü xüsusi təntənəli sinaqoq ibadəti zamanı şeypurda (şofar) çalınır, yeni ilin ilk gecəsində isə şirnilər – bala batırılan alma yaxud piroq yeyilir. İkinci gecə təzə yetişmiş bar gələn ilin bolluğuna ümidlərin rəmzi kimi yeyilir. Aravo 10 günlük tövbənin başlanğıcının rəmzidir.

Bu günlər böyük günahların təmizlənməsi günü ("Yom-Kuppur"-"Kəffarə günü") ilə bitir. Yom-Kippurda günəşin batmasından növbəti günün axşamına qədər oruc tutulmalıdır. Bir çox mömin dağ yəhudiləri bu gün ayaqqabı geymirlər. Yəhudi ənənəsinə görə, insan Yom-Kippur günündə yalnız bütün incitdiklərinin əfvini

alandan sonra günahlarından təmizlənə bilər. Sinaqoqda beş ibadət keçirilir; ilk axşam ibadətinin əvvəlində ən tanınmış sinaqoqa duası – "Kol Nidre" səsləndirilir. Dua edənlər tövbə etməyə, günahlarını etiraf etməyə çağırılır: sinaqoqa daxil olan hər kəs diz üstə çökür. Bütün yəhudi bayramlarının əvvəli iki gün ərzində qeyd oluna biləcəyi halda (təzə ayın çıxması günündə mümkün səhvlərlə bağlı olan qədim ənənəyə əsasən), Yom-Kippur yeganə bayramdır ki, yalnız bir gün ərzində qeyd edilir. Yom-Kuppur şofarın sədaları ilə tamamlanır.

Tövbə günündən beş gün sonra dağ yəhudilərində "Kuşey" ("Sukkot") bayramı başlanır. O, səkkiz gün davam edir və ikimənalılıq daşıyır – aqrar və mənəvi-tarixi. Daha qədimdən məhsul bayramı olan Kuşey eyni zamanda dağ yəhudilərinin 40 illik səhrada sərsəriliyini xatırladır. Sukkot gunlərində meyvə və güllərlə bəzədilmiş yüngül şalaş tipli tikili ("sukku") qurulur. Bu cür şalaşda yəhudi ailəsi mümkün qədər çox vaxt keçirməyə çalışır. Sukkotun hər günündə dindarlar kütləvi yerişlə sinaqoqu dolanır. Sinaqoq ibadəti zamanı dindarlar əllərində sitrus meyvəsini (etroq) tutur və palma, mərsin və bədmüşk budaqlarından ibarət dəstəni yellədirlər. Sukkotun qeyd edilməsinin səkkizinci günü Tövratın oxunuşunun illik tsikli bitir və yeni tsikl başlayır. Buna görə bu gün Tövrata sahib olma ("Simxat-tora") bayramı adlanır. Şən nümayiş yeddi dəfə sinaqoqu dolanır; dindar dağ yəhudiləri əllərində Tövratın qiymətli mətn parçalarını tuturlar. Səhər ibadətində bütün kişilər növbə ilə Tövratın oxunuşuna dəvət edilirlər.

Digər yəhudi icmaları kimi dağ yəhudiləri də bayramı digər yəhudilər kimi eyni qaydada qeyd edirlər. Lakin bəzi bayramlarda fərqli ayinlərə rast gəlinir. Məsələn, Oğuzda Nisan ayının adı ilə adlandırılan "Nisonu" ("Pesax") bayramını qeyd edən dağ yəhudiləri haqqında S.Bejanov yazırdı: "Pesax bayramında dünya yəhudiləri kimi dağ yəhudiləri də Misir əsarətindən azad olunmalarını qeyd edirlər. Bayramın keçirildiyi8 gün ərzində yalnız şirin çörək (matsa) yeməyə icazə verilir. Buna görə Pesaxı bəzən "Opresnok" bayramı adlandırırlar. Çörəyi belə hazırlayırlar: ilk öncə buğdanı yağış suyu dəyməyən xırmandan alıb onu yeni qabda əkirlər. Pesaxa 30 gün qalmış yalnız sağ buğdaları seçib dəyirmanda üyüdürlər. Ravvin

xeyir-dua verdikdən sonra ondan çörək bişirirlər. Maraqlısı budur ki, çörəyi kişilər yeni təndirdə bişirməlidir. Bu çörəyi kəsmək üçün yalnız yeni bıçaqdan istifadə edirlər. Pesax bayramında bütün köhnə qab-qaşıq yenisi ilə əvəzlənir. Pesax süfrəsində matsudan başqa mütləq acı otlar, xaroset (sürtkəcdən keçirilmiş almalar, qazlar və şərabdan ibarət qarışıq), yumurta, qoyun sümüyü, tərəvəz, içində duzlu su olan kasa olur. Ev sahibi Misirdən çıxışın tarixçəsini danışır və danışığını nümunələrlə izah edir. Süfrədə əyləşənlər dua edir və dörd qədəh şərab içirlər. Seder (bayram) axşamında birinci Aqada qədim yəhudi dilində oxunulur, ikinci isə cuhuri dilində. Yemək yedikdən sonra Allah tərəfindən misirlilərə göndərilən "10 cəza" oxunulur. Bunları oxuyarkən isə qırıq gil qaba bir qədər kül əlavə olunur və yumurta qabığı qoyularaq 10 damcı şərab tökülür. Bayramı bir neçə ailə bir yerdə qeyd edir. Pesax bayramı 8 gün davam edir. Bu günlərdə quru balıq və şirniyyat yeyilmir. Dağ yəhudilərinin dini inancına görə sonuncu gün evin damına çıxaraq bacaya bir qədər ot atırlar, çünki ənənəyə görə bu bayram baharın gəlişinə işarədir. Bundan başqa dağ yəhudiləri Pesaxda tonqal yandırır və onun üzərindən atlanaraq cuhuri dilində nəğmələr oxuyurlar.Dağ yəhudilərində Pesax qədimdən, həmçinin əkinçilik bayramı hesab edilirdi. Bu zaman biçinin başlanması qeyd edilirdi".

Pesaxdan yeddi həftə sonra (may, iyun aylarında) "Asal-ta" ("Şavuot") bayramı başlayır. Tərcümədə "şirin" mənasını verən "Asal-ta" dağ yəhudiləri arasında bir o qədər də əhəmiyyətə malik deyildir. Dağ yəhudiləri Asal-tanın birinci axşamında Əhdi-Ətiq kitabını oxuyur, mikvada çimir və 365 əmr və 248 qadağadan danışırlar.

Dağ yəhudilərinin dini bayramları içərisində "Qomonu" adlandırılan "Purim" xüsusi yer tutur. Bu gündə dağ yəhudiləri bir-birinəlavaşa bükülmüş halva göndərir. Əgər il boyunca ailədə kimsə rəhmətə gedibsə o zaman minyan toplanaraq "kadiş" (dua) oxunulur. Dağ yəhudilərinə görə Qomonu şən bayramdır. Qomonunun ilk günündə onlar "Esfir orucu" adlandırılan oruc tuturlar. Axşam sinaqoqa toplaşan yəhudilər "Esfirin kitabı"ndan müəyyən hissələr oxuyurlar. Uşaqlar isə Amanın

fiqurlarını yaradaraq axşam və səhər o fiqura çəkiclə vururlar. Bundan başqa onlar musiqi alətində ifa edirlər. Nahardan sonra qohumlarına baş çəkən yəhudilər sonra cıdıra çıxırlar, yarışırlar.

Dağ yəhudilərinin bayramlarından biri də “Xanuka”dır. Xanukanı dağ yəhudiləri xüsusi təmtəraqla qeyd etmirlər. Dağ yəhudiləri bu bayramda b.e.ə. II əsrdə yunanlar üzərində qələbələrini və Qüds məbədinin təmizlənməsini yada salırlar. Xanukanın səkkiz gününün hər birində xüsusi səkkiz şamlı qəndildə (menora) şam yandırılır. Dini himnlər oxunur, uşaqlar şən oyunlar oynayırlar. Bu günlərdə şən ziyafətlər təşkil edilir, hədiyyələr mübadiləsi aparılır.

Dağ yəhudilərinin dini inanclarında yalnız şən bayramları deyil, ağı günlərini də qeyd etmək ənənəsi vardır. Dağ yəhudilərinin tragik bayramlarından biri “Soroni” adlandırılan “Tişa be-Av”dır. Dağ yəhudilərinə görə Soroni “Hüzn günü”dür. Dağ yəhudiləri bu gündə tarixən yəhudilərin başlarına gələn müxtlif faciələri yad edirlər: Avropada yəhudilərin kütləvi qırğını (Holokost). Dağ yəhudiləri digər yəhudilərdən fərqli olaraq bu gündə Qüdsdə Məbədin dağıdılmasını yad etmirlər. Bundan başqa dağ yəhudiləri Soroni günündə həm də vəfat etmiş qohum-əqrəba və valideynləri də anırlar. Dağ yəhudilərinin hamısı bu günü qəbirstanlığa gedir və qəbir başında ağılar deyirlər. İ.Çernov dağ yəhudilərinin bu bayramı haqqında yazırdı: “Bir dəfə Qırmızı Qəsəbədə olarkən uzaqdan mahnı səsi eşitdim. Səs gələn tərəfə gedəndə gördüm ki, 7-8 qadın sıra ilə oturub mahnı ilə ağlayırlar. Gözləri ağlamaqdan qıpqırmızı idi. Ravvindən vəfat edənin nə zaman öldüyünü soruşduqda ravvinin cavabı məni çox təəccübləndirdi: “25 ildir”. Qırmızı Qəsəbədə bu bayram həm də “Mayrom-ovoi” adlanır. Dağ yəhudiləri bunu belə izah edirlər: Bu günü Məryəm (Mayrom) və onun 7 oğlu (ovoi) vəfat etmişdir. Biz də onların xatirəsini anırıq. Rəvayətə görə, digər dinə etiqad etməkdən imtina edən Mayromun 7 oğlu edam olunur. Bundan sonra Mayrom qanadlanaraq səmaya qalxır. Güman olunur ki, bu rəvayət Talmuddan qaynaqlanır. Belə ki, Talmudda nəql olunur ki, Vespesianın təqibi zamanı (II Məbəd dağıdılarkən) romalılar Məryəmin oğullarını edam edirlər, buna dözməyən Məryəm isə vəfat edir”. Dağ yəhudiləri Soronidə “Yeremiyanın ağı kitabı”ndan müəyyən

hissələr oxuyur, sinələrinə döyür, oruc tutur, ayaqyalın qəbirstanlığa gedir, gülüş və əyləncədən uzaq olurlar. Sinaqoqlar yarı-işıqlı və dekorasiyasız olur, Tövrat isə qara cildə bükülür.

***Dağ yəhudilərinin mətbəxi.*** Sayca az olmalarına baxmayaraq dağ yəhudiləri zəngin mətbəx ənənələrini qoruyub saxlaya bilmişlər və dağ yəhudilərinin mətbəxi çoxəsrlik tarixə malikdir. İlk öncə qeyd etmək lazımdır ki, yəhudi xalqının özünəməxsus zəngin mətbəxi var. Buna dini baxımdan yəhudi xalqının bütün dünyaya yayılması təsir göstərmişdir. Yəhudi mətbəxi özündə aşkenaz və sefard mətbəx ənənələrini birləşdirir, lakin onlar bir – birindən əsaslı sürətdə fərqlənir. Aşkenaz mətbəxi avropa yəhudilərinin mətbəxidir, sefard mətbəxi isə İspaniya və Aralıq dənizi sahilindəki yəhudilərin mətbəxidir. Aşkenaz mətbəxi o qədərdə zəngin deyildir. Bu Avropadakı yəhudilərin o qədər də varlı olmaması ilə bağlıdır. Yəni yəhudilərin bu qrupu az miqdarda ərzaqla çeşidli yeməklər hazırlamaqla kifayətlənmişdir. Sefard mətbəxi isə daha zəngindir, çünki bu mətbəx özündə İspan və Aralıq dənizi sahilində yaşayan xalqların ənənələrini birləşdirir. Bu mətbəxdə balıq məhsullarına, tərəvəz məhsullarına, paxlalı bitkilərə, zeytun yağına geniş yer verilir.

Dağ yəhudilərinin tarixini tədqiq edən görəmli alim İ.Çernov XIX əsr dağ yəhudiləri mətbəxi və mətbəx ənənələri haqqında yazırdı: "Adi günlərdə dağ yəhudiləri yeməyi süfrəyə adi taxta sinilərdə təqdim edirlər. Bayram günlərində taxta sinilər mis sinilərlə əvəzlənir. Sini adi günlərdə çit, bayram günlərində isə ipək parça ilə örtülmüş xalçanın üzərinə qoyulur. Parçanın altına həftədə bir dəfə (cümədən-cüməyə) hazırlanan təndir çörəyi qoyulur (lakin xüsusi qonaq gəldikdə qonağın gəlişi münasibətilə həmin gün çörək bişirilir). Çörəyin yanında duz, sarımsaq və soğan vardır. Bayram günlərində isə stola əlavə olaraq meyvə də qoyulur. Sininin ətrafında bardaş quraraq kişilər əyləşir. Qapının yanında ya xidmətçilər, ya da ailə üzvlərindən kimsə dayanır. Xidmətçi əllərini yumaq üçün ailə başçısına su gətirir, bundan sonra ailə başçısı Tövratdan dua oxuyaraq çörəkdən sininin ətrafında oturanların sayı qədər hissələr qoparır və bu hissələri oturanlara

verir. Oturanlar da Allaha bu çörəyə görə xüsusi şükr duası oxuduqdan sonra onu 3 dəfə duza batırıb yeyirlər. Ailə başçısı sonra təzə çörək götürüb onu hissələrə ayırır, duza batırır və xidmətçidən yan otaqdakı ailə üzvlərinə göndərir. Birinci yemək olaraq süfrədəki sarımsaq və soğan çörəklə yeyilir. Daha sonra evin sahibəsi digər yeməkləri süfrəyə təqdim edir. Bu, mal və toyuq əti və ya balıqdan hazırlanmış müxtəlif yeməklərdir: mal, toyuq ətindən və ya quyruqdan hazırlanan şorba, düşbərə, turş tərəvəzlərlə hazırlanmış lobya şorbası, balıq buğlaması və s. Eyni zamanda süfrəyə müxtəlif meyvələrdən hazırlanmış kompotlar, şərbətli üzüm və şərab da qoyulur. Yemək alətlərinə gəldikdə isə,dağ yəhudiləri əllə yeməyi çox sevirlər. Adətən, quru yeməkləri əllə yeyirlər,şorbanı isə yalnız taxta qaşıqla içirlər. Bu qaşıq ağ rəngdədir və yəhudilərin özləri tərəfindən hazırlanıb. Dağ yəhudiləri göyərtiləri çox sevir. Mən Qubada varlı yəhudilərdən birinin evində qonaq olarkən, mənə şəraba məzə kimi 5 növdə göyərti təqdim etdilər. Dağ yəhudiləri göyərtini istər çörəklə, istərsə də çörəksiz yeyirlər. Yayda bir qayda olaraq göyərti yalnız çörəklə yeyilir. Dağ yəhudilərinin mətbəxində diqqətimi çəkən məsələ isə sarımsaqdan ifrat dərəcədə istifadə edilməsidir. Sarımsaq bəzən o qədər çox olur ki, bir avropalı bu yeməyi heç vaxt yeyə bilməz. Dağ yəhudilərinin mətbəxinin səciyyəvi cəhətlərindən biri də ədviyyatlardan çox istifadə olunmasıdır; soğan, sarımsaq, qara istiot, zəncəfil, darçın, şüyüd toxumundan olduqca çox istifadə olunur. Qeyd etməliyəm ki, dünyaca məşhur olan çuğundur və qıtıqotu sousu dağ yəhudi aşbazlarının mühüm əhəmiyyətə malik ideyalarından olmuşdur. Bu sousu hazırlayarkən qıtıqotu kökünün tündlüyünü azaltmaq üçün onu havada saxlayırdılar. Lakin bundan sonra qıtıqotu bitkisi öz görünüşünü itirirdi. Bu sous orta əsrlərdə yəhudilər arasında o qədər də geniş yayılmamışdır. Çünki xama o dövrdə o qədər də ucuz məhsul sayılmırdı, həm də bu sousun ət yeməkləri ilə birgə süfrəyə vermək olmurdu. Bu məsələni yəhudi aşbazları çox asan yolla həll etmişdilər. Onlar qıtıqotu bitkisinə çuğundur şirəsi qatdılar. Bu sous çox qısa müddətdə və ucuz başa gəlirdi, gözəl qırmızıya çalan rəngi olurdu və ət xörəkləri ilə birgə verilə bilərdi. Dağ yəhudilərində də bu sousdan çox istifadə olunur. Dağ yəhudilərinin mətbəxində pörtləmə, qaynama, kiçik odda, qapaq altında bişmə əsas yemək qaydalarından sayılır. Onlar çalışırlar ki, bir ərzaqdan bir neçə

yemək ceşidi hazırlasınlar. Məsələn, bir toyuqdan bulyon, dərisindən, içalatından və bir miqdar ətindən döyülmüş yemək, yəni qefilte-qelzele hazırlayırlar. Qalan ətdən xüsusi reseptlə əsas yeməy çeşidi hazırlanır. Dağ yəhudiləri yalnız təzə süddən istifadə edirlər. Qaz və toyuğun piyindən soyuq yeməklərin hazırlanmasında geniş istifadə olunur".

Dağ yəhudiləri də bütün yəhudilər kimi yemək mərasimlərinə xüsusi diqqət yetirirlər. "Aruxa" adlanan belə trapezalar özlərində müxtəlif çeşidli yeməkləri ehtiva edirlər. Məsələn, "aruxat boker" adlanan səhər yeməyi süd məhsullarından, pendir, xama, qatıq və qaymaqdan ibarətdir. "Aruxat tsoharayim" adlanan nahar isə kiçik stolun açılması ilə başlayır. Stolda müxtəlif növ təamları görmə mümkündür. Axşam yeməyində isə ("aruxat erev") adətən balıq yeməklərinə, əsasən də kütüm və çapaq balığından hazırlanmış yeməklərə üstünlük verilir. Bundan başqa dağ yəhudiləri xiyar-pomidor, ağ və qırmızı turp yeməyi çox sevirlər.

Dağ yəhudilərinin mətbəxi olduqca zəngindir. Çünki  burada həm ərəb- türk, həm də fars mətbəx ənənələrinə geniş yer verilir. Məsələn şaurma, şirin burakes bulkaları ənənəvi dağ yəhudi mətbəxinə aid deyildir, digər xalqlardan mənimsənilərək ənənəvi yeməklərə daxil edilmişdir. Dağ yəhudilərinin yeməklərinin bir qismi Qafqaz xalqlarının mətbəxindən mənimsənilmişdir. Məsələn, "Buqleme" (buğlama), "kurze" (gürzə), "xaşil" (xaşıl), "oş" (aş), "duqova" (dovğa), "xayla" (kükü), "çudo" (çudu), "inqar" (xəngəl), "dulma" (dolma) kimi yeməklər ənənvi Azərbaycan mətbəxindəndir.

Dağ yəhudilərinin mətbəxində bəzi qadağalar da (kaşrut-haram) mövcuddur. Bu kaşruta donuz əti, mal ətinin bəzi hissələri və süd məhsullarının bir qismi aiddir. Eyni zamanda biz onların mətbəxində rasional qidalanmanı da müşahidə edə bilərik. Geniş bioloji dəyəri olan bol vitaminli mineral maddələrə, zülala, tez həzm olan yeməklərə geniş yer verilir. Buna misal olaraq döyülmüş toyuq boğazı, döyülmüş balıq və kuqolu göstərə bilərik.

Dağ yəhudilərinin ənənəvi mətbəxi iki yerə ayrılır:

- ✓ Xüsusi günlərdə və ya bayramlarda hazırlanan yeməklər
- ✓ Adi günlərdə hazırlanan yeməklər

Qeyd etmək lazımdır ki, ənənəvi dağ yəhudi yeməkləri bu və ya digər dini bayramlarla əlaqədardır. Yəhudi dini bayramları zamanı həmin bayramın tarixi ilə bağlı müxtəlif yeməklər hazırlanır. Məsələn, yəhudilərin 3300 il əvvəl Misir əsarətindən azad olmaları münasibəti ilə qeyd etdikləri Pesax bayramında adətən "Matsa" adlanan acımamış xəmirdən hazırlanan duzsuz çörək bişirilir. Matsa "tonu" adlanan xüsusi gil sobada hazırlanır. Sobanı yandırmaq üçün təzəkdən istifadə dağ yəhudilərində qadağandır. Soba çör-çöplə yandırılır. Dağ yəhudilərinə görə, matsa çörəyi inam yeməyidir; yəhudilərin Misiri tərk edərkən Allaha bel bağlayaraq özləri ilə götürdükləri matsa Pesax bayramının əsas nemətidir.

Dağ yəhudilərinin ənənəvi bayram yeməkləri içərisində xüsusi yer tutan yeməklərdən "buğlama-cahi", yaqni, dulma və ya oş-yaprağı, xoyaquşt, xoyaquşt kərki və s. misal göstərə bilərik.

Dağ yəhudilərinin ən çox istifadə etdikləri sous "xumus" adlanır. Xumus Orta Şərqdə geniş yayılmış, əsasən İsrail, İordan, Livan, Suriya, Türkiyə və Kipr mətbəxinin ənənəvi yeməyidir. Yəhudilər hesab edirlər ki, "xumusu sevməyən yəhudi yoxdur". Süfrəyə soyuq qəlyanaltı və ya sous kimi təqdim olunan xumus adətən pita və qarğıdalı çipslərlə birgə təqdim olunur. Xumus qaynadılmış və blenderdə üyüdülmüş noxud püresinə zeytun yağı, limon suyu, küncüt pastası (taxina), duz, istiot, üyüdülmüş zirə, cəfəri və sarımsaq qatmaqla hazırlanır. Bəzən xumusun hazırlanmasında qızardılmış soğan, pomidor, kedr qozu, yemiş püresi, kakao da qatılır. Dağ yəhudiləri istər bayramlarda, istərsə də adi günlərdə xumusdan çox istifadə edirlər.

Bundan başqa dağ yəhudilərinin gündəlik həyatda ən çox istifadə etdikləri çörək "pita" adlanır. Orta diametri təqribən 15-20 sm olan girdə bir çörək növü hesab olunan pita bizim mətbəximizdə lavaşı xatırlatsa da, lavaşla müqayisədə nisbətən qalındır.

Gündəlik ənənəvi dağ yəhudi yeməklərindən kubbe, xayla, tara (əməköməci), gefiltenin adını qeyd edə bilərik.

Dağ yəhudiləri mətbəxlərində daha çox qədim ənənəvi yeməklərə üstünlük versələr də, dağ yəhudi uşaqlarının ən çox sevdiyi yemək “falafel”dir (şaurma). Daha çox “fast food” ları xatırladan "falafel" Qafqaz yəhudilərinin də ənənəvi mətbəxinin bir hissəsidir. Güman olunur ki, falafel qədim Misir mətbəxinə aiddir. Sonradan digər ölkələrin mətbəxində də istifadə olunan falafel müasir dövrdə İsraildə və yəhudilərin bütün qrupları arasında o qədər geniş yayılmışdır ki, onu müasir İsrailin və yəhudiliyin "simvolu" da hesab edirlər. Falafeli hazırlamaq üçün noxud və ya paxlanı suda qaynadırlar, sonra onlardan püre hazırlayırlar. Ona müxtəlif ədviyyatlar-cəfəri, sarımsaq, soğan, duz, qara istiot, qırmızı istiot əlavə edirlər. Zövqə görə bulqur da əlavə etmək olar. Alınan bu qarışıqdan dairələr hazırlanır və qızılı rəng alana qədər yağda qızardılır. Süfrəyə adətən pita, küncüt sousu və ya tərəvəzlə təqdim olunur.

Dağ yəhudilərinin ənənəvi yeməklərindən danışarkən içkilərə də toxunmaq lazımdır. İstər günorta, istərsə də axşam trapezalarından sonra dağ yəhudiləri qara çay içməyi çox sevirlər. Təsadüfi deyil ki, dağ yəhudilərinin yaşadığı ərazilərdə fəaliyyət göstərən çoxsaylı çayxanalara rast gəlmək olar. Bayram günlərində isə dağ yəhudiləri spirtli içkilərdən də istifadə edirlər. Bütün ailə üzvləri az miqdarda olsa belə şərab içirlər.

Dağ yəhudilərinin mətbəxində şirniyyatlar da ənənəvi yeməklər sırasına daxildir. Dağ yəhudilərinin ən çox sevdiyi şirniyyatlardan biri “bişi” adlanır. Bişi aralarına bal şirəsi yaxılmış nazik qatlardan ibarətdir. Dağ yəhudiləri bişini Purim bayramında hazırlayırlar.

Digər ənənəvi şirniyyat isə Quba yəhudilərinin “xaroset”, Bakı yəhudilərinin isə “xasrut” adlandırdıqları meyvə və qozdan hazırlanan şirniyyatdır. “Xaroset” sözü ibri dilindəndən tərcümədə “gil” mənasını verən “xeres” sözündən götürülüb. Xaroset Pesax bayramı üçün hazırlanır. Şiniyyatın rəngi və pastaşəkilli qatı konsistensiyası gilə bənzədiyindən dağ yəhudiləri şirniyyata bu adı veriblər. Yəhudi

ənənəsinə görə, qədimdə yəhudilər Misir köləliyindən azad olaraq Misiri tərk edəndə həm də gil hazırlamalı idilər. Bu şirniyyat da “azadlıq sevinci”nə işarə edir. Xaroset dağ yəhudilərinin 15 əsrlik tarixə malik olan şirniyyatıdır. Adətən bayram sederində (axşamında) matsa ilə birgə yeyilir.